**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

4 avqust 2023-cü il
№29 (9037)

www.muallim.edu.az
muallim@edu.gov.az

## Elm və təhsil naziri Zaqatalada vətəndaşları qəbul edəcək

Elm və təhsil naziri Emin Əmrullayev 30 avqust 2023-cü il tarixində Zaqatala rayonunda vətəndaşları qəbul edəcək. Qəbulda Zaqatala, Şəki, Oğuz, Qəbələ, Qax və Balakən rayonlarının sakinləri iştirak edə bilərlər.

Adları çəkilən rayonların sakinləri 15 avqust 2023-cü il (saat 18:00-dək) tarixinədək Elm və Təhsil Nazirliyinin Çağrı Mərkəzinin 146-6 nömrəli telefonuna (yalnız iş günləri və saatları ərzində) zəng etməklə qəbula yazıla bilərlər. Eləcə də nazirliyin rəsmi saytının *https://edu.gov.az/az/contact_us* bölməsinə elektron formada və ya +994 51 206 78 48 nömrəsinə *"WhatsApp"* vasitəsilə müraciət göndərmək mümkündür.

Qəbulda yalnız yuxarıda göstərilən tarixlərdə müraciət etmiş şəxslər iştirak edə biləcəklər.

## Elm və təhsilin inteqrasiyasında yeni mərhələ

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 28 iyul 2022-ci il tarixdə imzaladığı Fərmandan sonra ölkəmizdə elm və ali təhsil sahəsində qarşılıqlı əlaqələrin tənzimlənməsi və istiqamətləndirilməsi sahəsində yeni bir mərhələ başlanmışdır. Keçən dövr ərzində Azərbaycan Milli Elmlər Akademiyası da, Elm və Təhsil Nazirliyi də dövlət başçımızın Fərmanından irəli gələn məsələlərin həll edilməsi üçün qarşılıqlı əlaqə şəraitində mühüm addımlar atmışlar.

⇨Ardı səh.5

## Şəxsi inkişafa dəstək, karyera yolunda geniş imkanlar...

Ölkə başçısı cənab İlham Əliyevin "Sosial müdafiəyə xüsusi ehtiyacı olan bir sıra şəxslərin təhsil haqqının dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi mexanizminin təkmilləşdirilməsi və "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqlarının təhsil xərclərinin ödənilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 18 mart tarixli 347 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" 27 iyul 2023-cü il tarixli Sərəncamına müvafiq olaraq ölkəmizin ali təhsil müəssisələrində bakalavriat və magistratura (əsas (baza ali) tibb təhsili və rezidentura) təhsil səviyyələrində və orta ixtisas təhsili müəssisələrində ödənişli əsaslarla təhsil alan Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə "Müharibə veteranı" adı almış şəxslərin təhsil müddəti ərzində təhsil haqqı 2023/2024-cü tədris ilindən etibarən dövlət büdcəsi vəsaiti hesabına ödəniləcək.

Qalibiyyətimizə görə borclu olduğumuz müharibə veteranı olan gənclərimiz dövlət başçısının bu Sərəncamını yüksək dəyərləndirirlər. Bəli, bu gənclər artıq təhsil haqqından azaddırlar və onlar öz sevinclərini "Azərbaycan müəllimi" qəzeti ilə bölüşüblər.

⇨Ardı səh.2

# SERTİFİKATLAŞDIRMA

# peşəkar müəllim keyfiyyətli təhsil



"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda müvafiq dəyişiklik edildi. Artıq 60 və daha yuxarı yaşda olan şəxslərin müəllimlərin sertifikatlaşdırılması imtahanında iştirakı könüllüdür. Bəs, müəllimlər özü nə qədər könüllüdür? Vera Silukova Xaritionovna Bakı şəhəri Xətai rayonundakı 257 nömrəli tam orta məktəbdə 30 ildən artıqdır ki, müəllimdir. "63 yaşım var və buna baxmayaraq, çox fəal müəlliməm", - deyir. İlk sertifikasiya imtahanlarında səhhəti ilə əlaqədar iştirak edə bilməyib. Növbəti imtahanlarda isə 60 yaşdan yuxarı müəllimlər üçün verilən qərar ona mane olub. İndi könüllü əsaslarla imtahan verməyə hazırlaşır: "İxtisasımdan, tədris etdiyim fəndən 50 baldan yuxarı nəticə göstərəcəyimə əminəm".

⇨Ardı səh.6

## 63 yaşlı müəllim sertifikasiya imtahanı verəcəyi günü səbirsizliklə gözləyir

## BU SAYIMIZDA

### Olimpiada dahiləri



Yaponiyanın Tokio şəhərində təşkil edilən 53-cü Beynəlxalq Fizika Olimpiadasında (IPhO) gənclərimiz ürəkaçan nəticələr əldə ediblər. Belə ki, komandamız 1 gümüş, 3 bürünc medal və 1 həvəsləndirici mükafat qazanıblar. Beynəlxalq Fizika Olimpiadasında Bakı şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyin məzunları Sadiq Sadıxzadə gümüş, Murad Abdulkərim bürünc, Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyinin məzunları Nicat Abbasov və Uğur Əzim bürünc medala, Quba şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyin şagirdi Murad İsmayılov həvəsləndirici mükafata layiq görülüblər.

səh.3

### "Pedaqoji stajı 3 il olan təhsilverənlərin sertifikatlaşdırma prosesinə cəlbi uğurlu qərardır"



Avqustun 29-da ötən il keçirilən sertifikatlaşdırma prosesində ibtidai sinif üzrə uğur qazanmayan təhsilverənlər, avqustun 31-də isə ibtidai sinif müəllimliyi, Azərbaycan dili və ədəbiyyat fənləri üzrə pedaqoji stajı 3 il olan təhsilverənlər, həmçinin müsabiqədə könüllü iştirak etmək istəyən 60 və daha yuxarı yaşda olan müəllimlər test imtahanı mərhələsinə cəlb olunacaqlar. İbtidai sinif müəllimi Qönçə Ələkbərova pedaqoji stajı 3 il olan təhsilverənlərdən biri kimi avqustun 31-də sertifikatlaşdırma imtahanında iştirak edəcək.

səh.6

### "Məktəb rəhbəri idarəedici lider olmalıdır"



"Yeni çağırışlar" onlayn müzakirə proqramının budəfəki qonağı Cənubi Florida Universitetinin Təhsil liderliyi və siyasəti üzrə doktorantura proqramının koordinatoru Zorka Karanxha olub. Belə ki, Elm və Təhsil Nazirliyinin dəstəyi və "T-Network" təhsil işçilərinin təcrübə və kommunikasiya platformasının təşkilatçılığı ilə davam edən "Yeni çağırışlar" proqramının 31 iyul 2023-cü il tarixində yayımlanan bölümündə ümumi büdcəsi 5.8 milyon dollardan çox olan qrant layihələrində iştirak edən Zorka Karanxha ilə "Gizli kurikulum" barəsində danışılıb.

səh.8

## 225 layihə qrant qazanıb

**Təhsildə inkişaf və innovasiyalar üzrə VII qrant müsabiqəsinin nəticələri açıqlanıb**

İyulun 28-də təhsildə inkişaf və innovasiyalar üzrə VII qrant müsabiqəsinin nəticələri elan olunub.

Müsabiqəyə ümumilikdə 1407 layihə təqdim edilib ki, bu da ötən illə müqayisədə 306 layihə (28%) daha çoxdur. Daxil olan layihələrin 279-u ümumi təhsil müəssisələrinin, 1128-i isə təhsilverənlərin fərdi layihələridir.

Müsabiqəyə təqdim edilən layihələr əvvəlcə texniki ekspertizadan keçirilib və nəticədə 1398 layihə məzmun ekspertizası mərhələsinə buraxılıb. Bu mərhələdə layihələr ekspert qrupu tərəfindən 100 ballıq şkala ilə 9 meyar əsasında qiymətləndirilib və ən yüksək bal toplayan 225 layihə qrant qazanıb. Qrant verilməsi nəzərdə tutulan layihələrin 72-si ümumi təhsil müəssisələrinin, 153-ü isə təhsilverənlərin fərdi layihələridir.

Daha çox layihəsi qrant qazanmış şəhər və rayonlara Bakı ilə yanaşı, Quba, Lənkəran, Sumqayıt, İsmayıllı, Laçın, Qax, Şirvan və Şəki aiddir.

Müsabiqənin nəticələri barədə bildirişlər, o cümlədən hər meyar üzrə layihənin topladığı ballar müsabiqə iştirakçılarının şəxsi kabinetlərinə göndərilib. Müsabiqə iştirakçıları şəxsi kabinetlərinə göndərilmiş bildirişlərdəki təlimata uyğun olaraq apellyasiya müraciəti edə bilərlər.

## Dövlət Proqramı təqaüdçülərinin uğur hekayələri

Qloballaşan dünyada təhsil sistemində yaranan innovasiyalar təhsilalanların imkanlarını daha da genişləndirir. Xüsusilə xaricdə təhsilini davam etdirmək, təcrübələrini, bilik və bacarıqlarını artırmaq istəyən gənclərin sayı çoxalmaqdadır. Son illərdə gənclərin dünyanın nüfuzlu ali məktəblərində təhsil almalarını, yüksəkixtisaslı mütəxəssislər kimi yetişməsini təmin etmək əsas hədəfə çevrilməkdədir. Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 28 fevral 2022-ci il tarixli Sərəncamı ilə "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" təsdiq edilib. 2023-2024-cü tədris ili üçün Dövlət Proqramı çərçivəsində həyata keçirilən sənəd qəbulu üzrə ilkin nəticələr açıqlanıb. Məlumat üçün bildirək ki, müsabiqənin ilkin nəticələrinə əsasən, ümumilikdə 134 namizəd müvafiq seçim Qaydalarına aid meyarlara uyğun olaraq Dövlət Proqramına qəbul olmuş və proqram iştirakçısı adını qazanmışdır. 2023-2024-cü tədris ili üçün təqaüd qazanan gənclərdən universitetlərin beynəlxalq reytinq sistemində "universitetlər üzrə top 10"dan 6 nəfər "UCL", 3 nəfər "Harvard University", 2 nəfər "ETH Zurich", 1 nəfər "Massachusetts İnstitute of Technology", 2 nəfər "İmperial College London", 1 nəfər "Stanford University", 3 nəfər isə "Columbia University" kimi nüfuzlu ali təhsil müəssisələrindən qəbul almışdır. Dövlət Proqramı təqaüdçüləri öz təəssüratlarını, təcrübələrini, gələcək hədəflərini "Azərbaycan müəllimi"nə danışdılar. Onları tanıyaq.

⇨Ardı səh.5

## Vaxtdır, peşəni seç!

Peşə təhsili müəssisələrinə 2023-2024-cü tədris ili üzrə tələbə qəbulu davam edir. Bu il tələbə qəbulu 66 peşə təhsil müəssisəsində 128 ixtisas olmaqla 25420 plan yeri üzrə aparılır.

**Elektron tələbə qəbulu üçün platforma açıqdır**

Artıq 4 mindən çox şəxs peşə təhsili müəssisələrinə qəbul üçün müraciət edib. Peşə seçmək istəyənlər üçün *portal.edu.az* platformasında qeydiyyat avqustun 11-i saat 23:59-dək açıq olacaq. Peşə təhsili almaq istəyən ümumi və ya tam orta təhsil bazasını bitirən istənilən şəxs "Peşə təhsili müəssisələrinə elektron tələbə qəbulu" xidməti vasitəsilə müraciət göndərə bilər.

Prosesdə uğurla iştirak edə bilmək üçün bir neçə sənəd tələb olunur. Azərbaycan vətəndaşları şəxsiyyət vəsiqələrini, əcnəbilər müvəqqəti və ya daimi yaşayış icazə vəsiqələrini, ölkədə daimi yaşayan vətəndaşlığı olmayan şəxslər şəxsiyyət vəsiqələrini, qaçqın statusu almış şəxslər və onların ailə üzvləri qaçqın vəsiqələrini, onlara verilmiş yol sənədini, beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda digər sənədləri və ya icazə vəsiqələrini təqdim edirlər. Peşə təhsili almaq istəyənlər üçün təhsil haqqında sənəd (attestat) də önəmlidir.

Əlilliyi olan şəxslər, eləcə də valideynlərini itirən və valideyn himayəsindən məhrum olan uşaqlar müvafiq sənədlərlə qeydiyyatdan keçəcək. Belə ki, müraciətçi əlilliyini təsdiq edən sənədi və ya valideynlərini itirdiyinə dair və valideyn himayəsindən məhrum olduğunu təsdiq edən sənədləri də öz müraciətinə əlavə etməlidir.

⇨Ardı səh.8

# Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Ermənistanın hərbi təcavüzü nəticəsində 30 ilə yaxın işğal altında qalmış əzəli tarixi torpaqlarımız 44 günlük Vətən müharibəsində hərbi-siyasi yolla işğaldan azad olundu və şanlı Zəfərə aparan hər bir gün Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.

Rəşadətli Azərbaycan Ordusunun əsgər və zabitlərinin canı, qanı bahasına Vətən müharibəsində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələri, Xocavənd rayonunun Hadrut qəsəbəsi və bir çox kəndləri, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndi daxil olmaqla, ümumilikdə 300-dən çox yaşayış məntəqəsi, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəkliklər işğaldan azad edildi. Qarabağın tacı Şuşa şəhərinin azad edilməsi və Ermənistanın kapitulyasiya aktını imzalamağa məcbur olması ilə müharibə başa çatdı.

Azərbaycanın döyüş meydanında qazandığı böyük qələbə siyasi müstəvidə də öz təsdiqini tapdı — Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarını işğaldan azad etmək məcburiyyətində qaldı və bununla da tarixi ədalət bərpa olundu.

30 illik işğal dövründə Ermənistan tərəfindən şəhərlərimiz, kəndlərimiz, qəsəbələrimiz viran edilmiş, mədəni irsimizə böyük zərbə vurulmuş, tarixi-mədəni və dini abidələrimiz, məscidlərimiz dağıdılaraq vandalizmə məruz qalmışdır. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur hazırda yenidən qurulur, ərazilər minalardan təmizlənir, sürətlə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır.

Məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrasına başlanılmışdır. Artıq Zəngilan rayonunun Ağalı kəndinə, Tərtər rayonunun Talış kəndinə və Laçın şəhərinə məcburi köçkünlərin qayıdışı təmin olunmuşdur və bu istiqamətdə işlər davam etdirilir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Vətən müharibəsində əldə olunmuş tarixi qələbəni əbədiləşdirmək və işğaldan azad edilmiş şəhərlərin günlərini təsis etmək məqsədilə **qərara alıram:**

**1.** Hər il aşağıdakı günlər işğaldan azad edilmiş ərazilərdəki şəhərlərin günləri kimi təntənəli şəkildə qeyd olunsun:

**26 avqust — Laçın şəhəri günü**
**4 oktyabr — Cəbrayıl şəhəri günü**
**17 oktyabr — Füzuli şəhəri günü**
**20 oktyabr — Zəngilan şəhəri günü**
**25 oktyabr — Qubadlı şəhəri günü**
**8 noyabr — Şuşa şəhəri günü**
**20 noyabr — Ağdam şəhəri günü**
**25 noyabr — Kəlbəcər şəhəri günü.**

**2.** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri ilə birlikdə bu Sərəncamdan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 31 iyul 2023-cü il*






Əvvəli səh.1

# Şəxsi inkişafa dəstək, karyera yolunda geniş imkanlar...


Kamran ƏZİMOV


Pərvin ABASQULİYEV


Vəliəhəd VƏLİYEV


Elvin BƏKİROV

# Müharibə veteranlarının təhsil haqqı dövlət büdcəsi vəsaiti hesabına ödəniləcək

*Kamran ƏZİMOV:* - 2016-cı ildə 657 balla Azərbaycan Dövlət İqtisad Universitetinə (UNEC) qəbul olmuşam. 2020-ci ildə bakalavriatura təhsilimi başa vurmuşam. Həmin il hərbi xidmətə yollandım və İkinci Qarabağ müharibəsində iştirak etdim . Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" medalına layiq görülmüşəm. Mən həm də "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif olunmuşam.

İkinci Qarabağ müharibəsindən sonra təhsilimi davam etdirmək qərarına gəldim. 2022-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin magistraturasına qəbul oldum. Ödənişli əsaslarla təhsil alıram və mənim üçün bu, kifayət qədər böyük məbləğdir.

Dövlət başçısının Sərəncamı artıq bizlərin təhsillə bağlı maddi problemlərini tamamilə aradan qaldıracaq. Prezidentimizin müharibə veteranlarına, şəhid ailələrinə , qazilərə olan diqqət və qayğısı ən yüksək səviyyədədir. Bizim təhsil haqqından azad olunmağımız təhsilə əlçatanlığı təmin edir, vətənə layiqli mütəxəssis kimi öz töhfəmizi verməyə imkan yaradacaq.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm. Düşünürəm ki, təhsil sahəsində həm maddi, həm də mənəvi sıxıntılarımız artıq aradan qalxdı.

Bu Sərəncam bütövlükdə müharibə veteranlarımıza imkan verəcək ki, onlar sosial vəziyyətlərindən asılı olmayaraq ali təhsil ala, özlərini bu müstəvidə inkişaf etdirə bilsinlər. Prezidentimizin imzaladığı Sərəncam dövlətimizin həm veteranlara, həm də təhsilə göstərdiyi diqqət və qayğının növbəti təzahürüdür.

*Pərvin ABASQULİYEV:* - 2009-2013-cü illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetində "Biologiya" ixtisası üzrə bakalavr təhsili almışam. Hazırda Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) "Biznesin təşkili və idarə edilməsi (menecment)" ixtisası üzrə magistraturada ödənişli əsaslarla təhsil alıram. II kurs tələbəsiyəm.

Hər bir azərbaycanlının uzun illər sağalmayan yarası var idi. Və biz bir məqsəd, bir amalla yaşayırdıq. İşğal altında olan torpaqlarımızı mənfur düşməndən azad, Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək, tökülən qanların qisasını almaq. Mən Kəlbəcər istiqamətində gedən döyüş əməliyyatlarında iştirak etmişəm. Dövlət başçısının Sərəncamı ilə "Kəlbəcərin azad olunmasına görə" medalına layiq görülmüşəm.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyevin müvafiq Sərəncamı məni bir Vətən müharibəsinin veteranı olaraq çox sevindirdi. Belə ki, qeyd etdiyim kimi, hazırda Azərbaycan Dövlət İqtisad Universitetində magistraturada ödənişli əsaslarla təhsil alıram. Təhsil haqqından azad olunmağımız dövlətin bizə necə yüksək dəyər verdiyini göstərir.

Bu imkanı yaratdığına görə cənab Prezidentə sonsuz təşəkkürümü bildirirəm. Sərəncamı biz müharibə veteranlarına, şəhid ailələrinə, qazilərə göstərilən qayğı, eyni zamanda bizim şəxsi inkişafımıza dəstək kimi qiymətləndiririk. Və hesab edirəm ki, gələcək karyera imkanlarımızda misilsiz rol oynayacaqdır.

*Vəliəhəd VƏLİYEV:* - Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin "Maşın mühəndisliyi" ixtisasi üzrə III kurs tələbəsiyəm. İkinci Qarabağ müharibəsi zamanı Zəngilan rayonunun azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmişəm. 52 gün əsirlikdə olduğum zamanda belə, Rəşadətli Ordumuzun Qələbə qazanacağına əmin idim.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin "Dəmir Yumruq" siyasəti nəticəsində 14 dekabr 2020-ci ildə əsirlikdən azad olunaraq Vətənimə geri qaytarıldım.

Ali təhsil almaq, arzu etdiyim ixtisasa yiyələnmək mənim ən böyük istəyim idi. Və sevinirəm ki, arzuma çatmışam. Təhsilim ödənişli əsaslarla olduğu üçün bu maddi vəsaiti ödəməkdə çətinlik çəkirdim.

"Mən hər zaman qazilərin yanında olacağam", - söyləyən Prezident İlham Əliyev, əslində, cəmiyyətimizdə bütün müharibə iştirakçılarına olan münasibətini bildirmiş oldu. Dövlət başçısının şəhid ailələrinə, qazilərə, müharibə iştirakçılarına yüksək diqqəti, qayğısı və imzalanmış bu Sərəncam biz müharibə veteranlarına necə həssaslıqla yanaşılmasını göstərir.

Verilən qərar ali təhsil almaq istəyən, bunun üçün müvafiq bazası olan, ancaq təhsil haqqı ödəməyə maddi çətinlik çəkən müharibə iştirakçıları üçün gözəl fürsət və geniş imkanlar deməkdir.

Ali təhsilimi bitirdikdən sonra da Vətənimə layiqli mütəxəssis kimi xidmət edəcəyimə əminəm.

*Elvin BƏKİROV:* - 2009-2013-cü illərdə Gəncə Dövlət Universitetində "İqtisadiyyat" ixtisası üzrə təhsil almışam.

Bilirsiniz ki, ermənilər 30 ilə yaxın bir müddətdə bizim dədə-baba torpaqlarımızı işğal edərək minlərlə azərbaycanlıya qarşı vəhşiliklər törətmişdir. Təbii ki, biz qisas anını gözləyirdik. Ali Baş Komandan, Prezident İlham Əliyevin çağırışına inamla qoşularaq 2020-ci il sentyabrın 21-də könüllü olaraq ordu sıralarına yazıldım. Quru qoşunlarının "N" saylı hərbi hissəsinin həmlə taboru ilə bərabər, həmin ilin sentyabrın 27-də döyüşlərə qatıldım. İlk döyüşümüz Talış kəndi uğrunda oldu, sonra isə Suqovuşanı düşmən tapdağından azad etdik. Dekabrın 1-də isə artıq Laçın rayonuna daxil olduq.

Ölkə başçısının müvafiq Sərəncamı ilə "Laçının azad olunmasına görə" medalına layiq görülmüşəm. "Vətən müharibəsi iştirakçısı" medalı ilə də təltif olunmuşam.

İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra təhsilimi yenidən davam etdirmək istədim. 2022-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) magistraturasına qəbul olundum və hazırda "Beynəlxalq ticarət" ixtisası üzrə II kurs tələbəsiyəm.

Prezident İlham Əliyevin imzaladığı bu Sərəncam biz müharibə veteranlarını çox sevindirdi. Artıq bizim təhsil xərci ilə bağlı problemimiz olmayacaq. Bu, məni təhsil haqqımı düşünmək məsulliyətindən azad etdi. Bir müharibə veteranı olaraq Prezidentimizə bizə göstərdiyi diqqət və qayğıya görə minnətdaram.

**Samirə KƏRİMOVA**

# Apellyasiya Şurasının iclası keçirilib

İyulun 28-də elm və təhsil nazirinin müavini, nazirliyin Apellyasiya Şurasının sədri Firudin Qurbanovun rəhbərliyi ilə şuranın iclası keçirilib.

İclasda Elm və Təhsil Nazirliyinin Mil-Muğan Regional Təhsil İdarəsinin Maliyyə-iqtisad sektorunun müdiri vəzifəsinə namizəd Rahim Hüseynovun, Qarabağ Regional Təhsil İdarəsinin İnzibati təşkilat sektorunun aparıcı məsləhətçisi vəzifəsinə namizədlər Qızbəs Məmmədovanın, Nicat Əfəndiyevin, Elnur Mənəfovun və Aqil Ağayevin, Qarabağ Regional Təhsil İdarəsinin Maliyyə-iqtisad sektorunun aparıcı məsləhətçisi vəzifəsinə namizəd Elbrus Zeynallının, Şəki-Zaqatala Regional Təhsil İdarəsinin Oğuz rayonu üzrə təhsil sektorunun müdiri vəzifəsinə namizəd Sərdar Nəbiyevin müsahibə nəticələri ilə əlaqədar şikayətlərinə baxılıb.

İclasda müsahibə komissiyaları üzvlərinin təqdim etdiyi məlumat və videogörüntülər əsasında şikayətlər araşdırılıb. Beş şikayətin təmin olunması, iki şikayətin isə təmin edilməməsi barədə qərarlar qəbul olunub.

# Sumqayıt şəhərində şəhid xanımları ilə görüş

## Şəhid ailə üzvlərinin təhsilinin inkişafına dəstək, onların şəxsi və peşəkar inkişafı Təhsilin İnkişafı Fondu üçün əsas prioritetlərdəndir





Təhsilin İnkişafı Fondunun təşəbbüsü və Abşeron-Xızı Regional Təhsil İdarəsinin təşkilatçılığı ilə Sumqayıt şəhərində şəhid xanımları ilə görüş keçirilib. Şəhid övladlarının təhsilinə, eləcə də şəhid xanımlarının təhsilin müxtəlif pillələrində təhsil almasına dəstək göstərilməsi, onların məşğulluğu, cəmiyyətin sosial və iqtisadi həyatına daha sıx inteqrasiyası yollarına dair müzakirələr aparılıb.

Şəhid ailə üzvlərinin təhsilinin inkişafına dəstək, onların şəxsi və peşəkar inkişafı Fond üçün əsas prioritetlərdən birini təşkil edir.

# LDU-da yeni tələbə yataqxanası cari tədris ilində istifadəyə veriləcək

Lənkəran Dövlət Universitetinin (LDU) oğlan tələbələri 2023/2024-cü tədris ilində müasir tələblərə cavab verən yeni-250 yerlik yataqxana binasından istifadə edə biləcəklər.

Universitetdən bildirilib ki, yeni yataqxana binası universitetin II saylı korpusunda inşa olunub və burada oğlan tələbələrin rahatlığı üçün hər cür şərait yaradılıb. Belə ki, otaqlar zəruri məişət avadanlıqları, fasiləsiz internetlə təmin olunub. Yataqxanada idman, kitabxana və oxu zalı, informatika otağı, istirahət guşəsi tələbələrin ixtiyarına veriləcək. Yataqxana binasında videomüşahidə, yanğın əleyhinə siqnalizasiya sistemləri qurulub, telefon xətləri çəkilib. 5 mərtəbə, 100 otaqdan ibarət olan tələbə yataqxanasında otaqlar 2 və 3 nəfərlik nəzərdə tutulub və çarpayı, soyuducu, sanitar qovşağı, fasiləsiz su, mətbəx ləvazimatları və s. ilə təchiz edilib.

Universitetin rektoru professor Natiq İbrahimov oğlanlar üçün nəzərdə tutulmuş yeni tələbə yataqxanasını LDU-nun 30 illik tarixinin ürəkaçan nailiyyətlərindən biri kimi dəyərləndirib, gələcəkdə bu işin davamlı aparılacağını, tələbələrin sayı artdıqca yeni yataqxana binalarının, kampusların inşa olunacağını deyib.

Xatırladaq ki, LDU-da 160 yerlik tələbə yataqxanası 2019-cu ildə qızlar üçün istifadəyə verilib.

# Olimpiada dahiləri

## Gənclərimizin uğur hekayələri ilə tanış olaq

### Beynəlxalq Fizika (IPhO) olimpiadasında məktəblilərimiz uğur qazanıblar

Azərbaycan məktəblilərinin iyul ayında beynəlxalq bilik yarışmalarında qazandıqları medallar hər birimizi qürurlandırıb. Məlumat üçün bildirək ki, 10-17 iyul 2023-cü il tarixlərində Yaponiyanın Tokio şəhərində təşkil edilən 53-cü Beynəlxalq Fizika Olimpiadasında (IPhO) gənclərimiz ürəkaçan nəticələr əldə ediblər. Belə ki, komandamız 1 gümüş, 3 bürünc medal və 1 həvəsləndirici mükafat qazanıblar. Beynəlxalq Fizika Olimpiadasında Bakı şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü Respublika liseyinin məzunları Sadiq Sadıxzadə gümüş, Murad Abdulkərim bürünc, Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyinin məzunları Nicat Abbasov və Uğur Əzim bürünc medala, Quba şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü Respublika liseyinin şagirdi Murad İsmayılov həvəsləndirici mükafata layiq görülüblər. Olimpiada qaliblərimizin təəssüratlarını və gələcək hədəflərini öyrəndik, sevinclərinə şərik olduq.

### "Təhsilimi London İmperial Kollecində davam etdirəcəyəm"

*Bakı şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü Respublika liseyinin məzunu Sadiq Sadıxzadə:* "Mənim fizika fənninə marağım 7-ci sinifdə oxuyarkən fizika müəllimim Orxan Məmmədovun sayəsində yaranıb. 8-ci sinifdə mən artıq Beynəlxalq Olimpiadalar Mərkəzində hazırlaşmağa başladım və müəllimim Seyran Səfərovdan dərslər aldım. Həmçinin uğurlu nəticəmə görə beynəlxalq fizika olimpiadaları üçün Azərbaycan komandasının təlimçisi Rəşadət Qədiməliyevə dərin təşəkkürümü bildirirəm. Biz Rəşadət müəllimdən xüsusi dərslər aldıq, məsləhətlərini dinlədik. Olimpiadanın təcrübi hissəsinə hazırlıq məqsədilə Türkiyənin İstanbul şəhərində yerləşən Bahçeşehir Fen ve Teknoloji Lisesində 10 gün təcrübə keçdik.



Yaponiyanın Tokio şəhərində keçirilən 53-cü Beynəlxalq Fizika Olimpiadasında iştirak mənim üçün həyatda böyük şans və təcrübə oldu. Müsabiqədə Nobel mükafatı almış 3 yapon fiziki iştirak edirdi. Mən 5 ildir ki, olimpiadalara hazırlaşıram və ilk vaxtlardan Azərbaycan bayrağı ilə səhnəyə çıxaraq medal almaq xəyalım olub. 53-cü Beynəlxalq Fizika Olimpiadasının bağlanış mərasimində səhnəyə çıxmağım mənim üçün xüsusi yadda qalan idi. 2010-cu ildən sonra Azərbaycana yenidən Beynəlxalq Fizika Olimpiadasından gümüş medal gətirmək və son 13 ilin ən yaxşı nəticəsini göstərən komandanın üzvü olmaq məni daha da çox qürurlandırdı.

Dünyanın bir çox ölkəsindən güclü komandalar iştirak edirdi. Onlar arasında Çin, Koreya, Rumıniya kimi çox güclü komandalarla həmsöhbət olduq, orada olimpiadaya hazırlıq prosesi barədə yeni məlumatlar əldə etdik. Gələcək təhsilimi mən Dövlət Proqramı çərçivəsində İngiltərədə London İmperial Kollecində (ICL) davam etdirəcəyəm. Seçdiyim ixtisas elektrik və elektronika mühəndisliyidir. Məqsədim fizika üzrə öyrəndiyim bilikləri mühəndisliklə tətbiq edərək xeyirli layihələrə imza atmaqdır".

### "Azərbaycanda sürücüsüz avtomobil şirkəti açmaq istəyirəm"

*Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyinin məzunu Nicat Abbasov:* "Beynəlxalq Fizika Olimpiadasına hazırlıq prosesi gərgin və maraqlı keçirdi. Bu il Türkiyədə keçirilən fizika düşərgəsində türk komandası ilə birlikdə çalışdığımız ərəfədə mən və komanda yoldaşlarım əsl disiplinin nə demək olduğunu öyrəndik.

Mənim ilk və ən böyük təlimçim anamın dediyi kimi: "İstirahət dərsdən sonra gözəldir". Anamı ən böyük təlimçi kimi görməyimin səbəbi onun mənə riyaziyyat mövzularını çox gözəl anlatması idi. Müəllimlərim Könül Babayeva və Ülviyyə Teymurxanovadan dərs aldıqdan sonra fizikaya sonsuz sevgim yarandı. Bu sevgi Respublika Fənn Olimpiadasında medal qazanıb Rəşadət Qədiməliyevdən dərs almağıma səbəb oldu. Həmin dərslərdən sonra beynəlxalq olimpiadalardan sertifikat və medallar qazandım. Abdulla



Bazarov, Famil Mustafayev, Xıdır Mikayılovla tanış olmağım və onlardan dərs almağım astrofizikaya marağımı artırdı və bu sahədə də sertifikat və medallar qazandım. Müəllimlərimə dərin minnətdarlığımı bildirirəm. Olimpiadalar sayəsində akademik nailiyyətlərdən əlavə bir çox gözəl təcrübələr əldə etdim və onlar mənim xarakterimin formalaşmasında böyük rol oynayıb.

53-cü Beynəlxalq Fizika Olimpiadasında ən güclü rəqib olan Çin, Koreya, Yaponiya iştirakçıları ilə söhbət edir, gözəl vaxt keçirirdik. Hərəsi 5 saat davam edən imtahan olduqca maraqlı və uğurlu oldu. Nəticədə medalı götürmək və bayrağımızı qaldırmaq üçün səhnəyə çıxmaq əziyyətimizin bəhrəsini görmək demək idi. Bu isə çox qürurlandırır və məni inkişafa daha çox töhfə verməyə təşviq edir. Belə ki, növbəti il Koreya Qabaqcıl Elm və Texnologiya Universitetində (KAIST) təhsilimə başlayacağam. Hədəfim bir çox elmi araşdırmalarda iştirak etmək, şirkətlərdə çalışıb elektrik mühəndisliyi sahəsində təcrübə toplamaqdır. Sonra isə bu təcrübələr sayəsində Azərbaycanda sürücüsüz avtomobil şirkəti açmaq istəyirəm".

### "Medal boynumdan asıldığı zaman çox xoşbəxt idim"

*Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyinin məzunu Uğur Əzim:* "Beynəlxalq Fizika Olimpiadalarında keçirdiyim günlər zamanı ən yaxşı nəticə göstərmiş ölkələrin şagirdləri ilə ünsiyyətdə olduq və onlar bizə yüksək təchizatlı, təcrübə setləri ilə zəngin laboratoriyalarda keçdikləri hazırlıq prosesindən danışırdılar. Laboratoriya olmadan təcrübi imtahanlarda uğur qazanmaq çox çətindir. Beynəlxalq Fizika Olimpiadasında qazandığımız uğurda müəllimimiz Rəşadət Qədiməliyevin rolu böyükdür. Rəşadət müəllim dərsləri xoş əhvali-ruhiyyə yaradaraq keçir, anlaşılmayan, çətin mövzuları kreativ metodlarla başa salırdı. Olimpiada-



da ən güclü 3 ölkə Çin, Rusiya və Koreya komandaları idi. 53-cü Beynəlxalq Fizika Olimpiadasında şanlı bayrağımızı əllərimə alıb komanda yoldaşlarımla səhnəyə çıxdığım anda mənim də ölkəmizin göstəricilərində payımın olmasına görə çox sevincli idim. Medal boynumdan asıldığı zaman çox xoşbəxt idim. Olimpiada ərzində imtahan vermədiyimiz bütün günlərdə ya tədbirlərimiz olurdu, ya da Tokio şəhərinin görməli yerlərini gəzirdik. Dünyanın ən böyük şəhərlərindən biri olan Tokio müasirliyi və nizamlı quruluşu ilə göz qamaşdırırdı. Mən Türkiyənin Bilkent Universitetində "Mexanika mühəndisliyi" ixtisasına qəbul olunmuşam. Gələcək hədəfim uğurlu mexanika mühəndisi olub Azərbaycanda bu sahəyə önəmli töhfələr vermək, xəyallarımda olan layihələri gerçəkləşdirməkdir".

### "Vətənini şərəflə təmsil etmək böyük məsuliyyətdir"

*Bakı şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü Respublika liseyinin məzunu Murad Abdulkərim:* "Beynəlxalq olimpiadalara hazırlıq uzun bir prosesdir. Ən gec 9-cu sinifdən fizika olimpiadalarına hazırlaşırıq. Hazırlıq mərhələsi olimpiadalara hazırlaşmaq üçün təşkil edilən düşərgələrdə, həm də özümüz tərəfindən evdə baş tuturdu. Uzun yolun sonunda istədiyimizə nail olduq və medal qazandıq. Təbii ki, uğur qazanmağımızda müəllimlərimizin əməyi çox böyükdür. Heç şübhəsiz, əsas təşəkkür komanda rəhbərimiz və məşqçimiz Rəşadət Qədiməliyevə düşür. Həqiqətən də, həm mənəvi, həm olimpiadaya hazırlıq cəhətdən üzərimizdə əməyi son



dərəcədə böyükdür. Tokio şəhərində keçirilən 53-cü Beynəlxalq Fizika Olimpiadası 2 turdan (təcrübi və nəzəri) ibarət idi. Xalımızın 40%-i təcrübi, 60%-i nəzəri turdan asılı idi. Təcrübi turun iki sualından birini 2014-cü il üzrə Nobel laureatı olmuş Hiroşi Amano hazırlamışdı. Ölkə olaraq 89 komanda arasında 29-cu yerə yiyələndik, bu, olduqca yaxşı nəticədir. Vətənini, məmləkətini şərəflə təmsil etmək böyük məsuliyyətdir və səhnədə bayrağını qaldırdığı anda insan iftixar hissi duyur. Tokio şəhərinin yapon memarlığından ibarət hissəsini və şinto məbədlərini çox bəyəndim, yapon incəsənətinə heyran oldum. Məqsədim təhsilimi Britaniyada qəbul olduğum London Universitet Kollecində (UCL) davam etdirib, Oksford və s. kimi universitetlərə keçməkdir".

**Lamiyə ƏLİMƏRDANOVA**

# Ümumi təhsil müəssisələrinin 2023-2024-cü tədris ili üçün tədris planlarının təsdiqi haqqında

## Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin əmri

Ümumi təhsil müəssisələrində təhsil prosesinin təşkili və tənzimlənməsini təmin etmək məqsədilə "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 3.1.8-ci və 5.5.10-cu yarımbəndlərini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1. Azərbaycan Respublikasının tədris Azərbaycan dilində və digər dillərdə aparılan, azsaylı xalqların dilləri öyrədilən ümumi təhsil müəssisələrinin 2023-2024-cü tədris ili üçün aşağıdakı tədris planları və "Tədris planlarına dair qeydlər" təsdiq edilsin:
   1.1. Ümumi təhsil müəssisələrinin I-XI sinifləri üçün tədris planları (1, 2 nömrəli əlavələr);
   1.2. Azsaylı xalqların dilləri öyrədilən ümumi təhsil müəssisələrinin müvafiq sinifləri üçün tədris planları (3, 4, 5, 6 nömrəli əlavələr);
   1.3. "Tədris planlarına dair qeydlər" (7 nömrəli əlavə).
2. Yerli təhsili idarəetmə orqanlarının rəhbərlərinə tapşırılsın ki, ümumi təhsil müəssisələrinin fəaliyyətinin müvafiq tədris planları əsasında təşkilinə nəzarət etsinlər.
3. İnformasiya və vətəndaşlara xidmət şöbəsi (Rəşad Xanlarov) bu əmrin əlavələrlə birlikdə yerlərə və müvafiq struktur bölmələrə çatdırılmasını təmin etsin.
4. İctimaiyyətlə əlaqələr sektoru (Cəsarət Valehov) bu əmrin əlavələrlə birlikdə "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını və Nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.
5. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Firudin QURBANOV,**
**Nazir səlahiyyətlərini müvəqqəti icra edən, nazir müavini**

*1 avqust 2023-cü il*

---

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 01.08.2023-cü il tarixli, 3-29/3-2-484F/2023 nömrəli əmri ilə təsdiq edilib*

# Ümumi təhsil müəssisələrinin TƏDRİS PLANLARI

**Ümumi təhsil müəssisələrinin I-XI siniflərinin 2023-2024-cü tədris ili üçün tədris planı (tədris Azərbaycan dilində)**

**Əlavə 1**

| № | Fənnin adı | Siniflər üzrə həftəlik dərs saatlarının miqdarı | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | I | II | III | IV | V | VI | VII | VIII | IX | X | XI |
| 1 | Azərbaycan dili | 8 | 9 | 9 | 9 | 5 | 4 | 4 | 3 | 3 | 3 | 3 |
| 2 | Ədəbiyyat | | | | | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 3 | Xarici dil | 1 | 1 | 1 | 1 | 2 | 3 | 3 | 3 | 3 | 4 | 4 |
| 4 | İkinci xarici dil | | | | | 1 | 1 | 1 | 1 | 1 | 2 | 2 |
| 5 | Riyaziyyat | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 |
| 6 | İnformatika | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 2 | 2 |
| 7 | Azərbaycan tarixi | | | | | 2 | 1 | 1 | 2 | 2 | 2 | 2 |
| 8 | Ümumi tarix | | | | | | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| 9 | Fizika | | | | | | | 2 | 2 | 3 | 2 | 2 |
| 10 | Kimya | | | | | | | 1 | 2 | 2 | 2 | 2 |
| 11 | Biologiya | | | | | | | 2 | 2 | 2 | 2 | 2 |
| 12 | Coğrafiya | | | | | | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 13 | Təbiət | | | | | 2 | 3 | | | | | |
| 14 | Həyat bilgisi | 1 | 1 | 2 | 2 | | | 1 | 1 | 1 | | |
| 15 | Texnologiya | 1 | 1 | 2 | 2 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 16 | Təsviri incəsənət | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 17 | Musiqi | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 18 | Fiziki tərbiyə | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 19 | Çağırışaqədərki hazırlıq | | | | | | | | | | 2 | 2 |
| Cəmi: | | 21 | 22 | 24 | 24 | 25 | 28 | 31 | 32 | 33 | 33 | 33 |
| Dərsdənkənar məşğələlər | | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 2 | 2 | 2 | 2 |
| Yekun: | | 22 | 23 | 25 | 25 | 26 | 29 | 32 | 34 | 35 | 35 | 35 |

**Ümumi təhsil müəssisələrinin I-XI siniflərinin 2023-2024-cü tədris ili üçün tədris planı (tədris digər dillərdə)**

**Əlavə 2**

| № | Fənnin adı | Siniflər üzrə həftəlik dərs saatlarının miqdarı | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | I | II | III | IV | V | VI | VII | VIII | IX | X | XI |
| 1 | Tədris dili (________) | 8 | 9 | 9 | 9 | 5 | 4 | 4 | 3 | 3 | 3 | 3 |
| 2 | Ədəbiyyat | | | | | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 3 | Azərbaycan dili - dövlət dili kimi | 2 | 2 | 2 | 2 | 3 | 3 | 3 | 2 | 2 | 2 | 2 |
| 4 | Xarici dil | 1 | 1 | 1 | 1 | 2 | 3 | 3 | 3 | 3 | 4 | 4 |
| 5 | İkinci xarici dil | | | | | | | | 1 | 1 | 2 | 2 |
| 6 | Riyaziyyat | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 |
| 7 | İnformatika | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 2 | 2 |
| 8 | Azərbaycan tarixi | | | | | 2 | 1 | 1 | 2 | 2 | 2 | 2 |
| 9 | Ümumi tarix | | | | | | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| 10 | Fizika | | | | | | | 2 | 2 | 3 | 2 | 2 |
| 11 | Kimya | | | | | | | 1 | 2 | 2 | 2 | 2 |
| 12 | Biologiya | | | | | | | 2 | 2 | 2 | 2 | 2 |
| 13 | Coğrafiya | | | | | | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 14 | Təbiət | | | | | 2 | 3 | | | | | |
| 15 | Həyat bilgisi | 1 | 1 | 2 | 2 | | | 1 | 1 | 1 | | |
| 16 | Texnologiya | 1 | 1 | 2 | 2 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 17 | Musiqi | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 18 | Təsviri incəsənət | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 19 | Fiziki tərbiyə | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 20 | Çağırışaqədərki hazırlıq | | | | | | | | | | 2 | 2 |
| Cəmi: | | 23 | 24 | 26 | 26 | 27 | 30 | 33 | 34 | 35 | 35 | 35 |
| Dərsdənkənar məşğələlər | | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 2 | 2 | 2 | 2 |
| Yekun: | | 24 | 25 | 27 | 27 | 28 | 31 | 34 | 36 | 37 | 37 | 37 |

**Ləzgi dili öyrədilən ümumi təhsil müəssisələrinin I-XI siniflərinin 2023-2024-cü tədris ili üçün tədris planı (tədris Azərbaycan dilində)**

**Əlavə 3**

| № | Fənnin adı | Siniflər üzrə həftəlik dərs saatlarının miqdarı | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | I | II | III | IV | V | VI | VII | VIII | IX | X | XI |
| 1 | Azərbaycan dili | 7 | 8 | 8 | 8 | 5 | 4 | 4 | 3 | 3 | 3 | 3 |
| 2 | Ədəbiyyat | | | | | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 3 | Ləzgi dili | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 4 | Xarici dil | 1 | 1 | 1 | 1 | 1 | 2 | 2 | 2 | 2 | 4 | 4 |
| 5 | İkinci xarici dil | | | | | 1 | 1 | 1 | 1 | 1 | 2 | 2 |
| 6 | Riyaziyyat | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 |
| 7 | İnformatika | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 2 | 2 |
| 8 | Azərbaycan tarixi | | | | | 2 | 1 | 1 | 2 | 2 | 2 | 2 |
| 9 | Ümumi tarix | | | | | | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| 10 | Fizika | | | | | | | 2 | 2 | 3 | 2 | 2 |
| 11 | Kimya | | | | | | | 1 | 2 | 2 | 2 | 2 |
| 12 | Biologiya | | | | | | | 2 | 2 | 2 | 2 | 2 |
| 13 | Coğrafiya | | | | | | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 14 | Təbiət | | | | | 2 | 3 | | | | | |
| 15 | Həyat bilgisi | 1 | 1 | 2 | 2 | | | 1 | 1 | 1 | | |
| 16 | Texnologiya | 1 | 1 | 2 | 2 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 17 | Təsviri incəsənət | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 18 | Musiqi | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 19 | Fiziki tərbiyə | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 20 | Çağırışaqədərki hazırlıq | | | | | | | | | | 2 | 2 |
| Cəmi: | | 21 | 22 | 24 | 24 | 25 | 28 | 31 | 32 | 33 | 33 | 33 |
| Dərsdənkənar məşğələlər | | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 2 | 2 | 2 | 2 |
| Yekun: | | 22 | 23 | 25 | 25 | 26 | 29 | 32 | 34 | 35 | 35 | 35 |

**Ləzgi dili öyrədilən ümumi təhsil müəssisələrinin I-XI siniflərinin 2023-2024-cü tədris ili üçün tədris planı (tədris digər dillərdə)**

**Əlavə 4**

| № | Fənnin adı | Siniflər üzrə həftəlik dərs saatlarının miqdarı | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | I | II | III | IV | V | VI | VII | VIII | IX | X | XI |
| 1 | Tədris dili (________) | 7 | 8 | 8 | 8 | 5 | 4 | 4 | 3 | 3 | 3 | 3 |
| 2 | Ədəbiyyat | | | | | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 3 | Azərbaycan dili - dövlət dili kimi | 2 | 2 | 2 | 2 | 3 | 3 | 3 | 2 | 2 | 2 | 2 |
| 4 | Ləzgi dili | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 5 | Xarici dil | 1 | 1 | 1 | 1 | 1 | 2 | 2 | 2 | 2 | 4 | 4 |
| 6 | İkinci xarici dil | | | | | | | | 1 | 1 | 2 | 2 |
| 7 | Riyaziyyat | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 |
| 8 | İnformatika | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 2 | 2 |
| 9 | Azərbaycan tarixi | | | | | 2 | 1 | 1 | 2 | 2 | 2 | 2 |
| 10 | Ümumi tarix | | | | | | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| 11 | Fizika | | | | | | | 2 | 2 | 3 | 2 | 2 |
| 12 | Kimya | | | | | | | 1 | 2 | 2 | 2 | 2 |
| 13 | Biologiya | | | | | | | 2 | 2 | 2 | 2 | 2 |
| 14 | Coğrafiya | | | | | | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 15 | Təbiət | | | | | 2 | 3 | | | | | |
| 16 | Həyat bilgisi | 1 | 1 | 2 | 2 | | | 1 | 1 | 1 | | |
| 17 | Texnologiya | 1 | 1 | 2 | 2 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 18 | Təsviri incəsənət | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 19 | Musiqi | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | | |
| 20 | Fiziki tərbiyə | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 21 | Çağırışaqədərki hazırlıq | | | | | | | | | | 2 | 2 |
| Cəmi: | | 23 | 24 | 26 | 26 | 27 | 30 | 33 | 34 | 35 | 35 | 35 |
| Dərsdənkənar məşğələlər | | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 2 | 2 | 2 | 2 |
| Yekun: | | 24 | 25 | 27 | 27 | 28 | 31 | 34 | 36 | 37 | 37 | 37 |

**Azsaylı xalqların dilləri öyrədilən ümumi təhsil müəssisələrinin I-IV siniflərinin 2023-2024-cü tədris ili üçün tədris planı (tədris Azərbaycan dilində)**

**Əlavə 5**

| № | Fənnin adı | Siniflər üzrə həftəlik dərs saatlarının miqdarı | | | |
|---|---|---|---|---|---|
| | | I | II | III | IV |
| 1 | Azərbaycan dili | 7 | 8 | 8 | 8 |
| 2 | "______" dili | 1 | 1 | 1 | 1 |
| 3 | Xarici dil | 1 | 1 | 1 | 1 |
| 4 | Riyaziyyat | 5 | 5 | 5 | 5 |
| 5 | İnformatika | 1 | 1 | 1 | 1 |
| 6 | Həyat bilgisi | 1 | 1 | 2 | 2 |
| 7 | Texnologiya | 1 | 1 | 2 | 2 |
| 8 | Təsviri incəsənət | 1 | 1 | 1 | 1 |
| 9 | Musiqi | 1 | 1 | 1 | 1 |
| 10 | Fiziki tərbiyə | 2 | 2 | 2 | 2 |
| Cəmi: | | 21 | 22 | 24 | 24 |
| Dərsdənkənar məşğələlər | | 1 | 1 | 1 | 1 |
| Yekun: | | 22 | 23 | 25 | 25 |

**Azsaylı xalqların dilləri öyrədilən ümumi təhsil müəssisələrinin I-IV siniflərinin 2023-2024-cü tədris ili üçün tədris planı (tədris digər dillərdə)**

**Əlavə 6**

| № | Fənnin adı | Siniflər üzrə həftəlik dərs saatlarının miqdarı | | | |
|---|---|---|---|---|---|
| | | I | II | III | IV |
| 1 | Tədris dili (____________) | 7 | 8 | 8 | 8 |
| 2 | "________" dili | 1 | 1 | 1 | 1 |
| 3 | Azərbaycan dili - dövlət dili kimi | 2 | 2 | 2 | 2 |
| 4 | Xarici dil | 1 | 1 | 1 | 1 |
| 5 | Riyaziyyat | 5 | 5 | 5 | 5 |
| 6 | İnformatika | 1 | 1 | 1 | 1 |
| 7 | Həyat bilgisi | 1 | 1 | 2 | 2 |
| 8 | Texnologiya | 1 | 1 | 2 | 2 |
| 9 | Təsviri incəsənət | 1 | 1 | 1 | 1 |
| 10 | Musiqi | 1 | 1 | 1 | 1 |
| 11 | Fiziki tərbiyə | 2 | 2 | 2 | 2 |
| Cəmi: | | 23 | 24 | 26 | 26 |
| Dərsdənkənar məşğələlər | | 1 | 1 | 1 | 1 |
| Yekun: | | 24 | 25 | 27 | 27 |

**Əlavə 7**

## Tədris planlarına dair qeydlər

1. Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrində tədrisi nəzərdə tutulan xarici dil (dillər) ingilis, alman, fransız, rus, ərəb, fars dilləri arasından seçilir.
2. Tədris dilindən asılı olmayaraq, bütün ümumi təhsil müəssisələrində xarici dilin tədrisi I (birinci) sinifdən başlanır. Tədrisi I (birinci) sinifdən başlanan xarici dil şagirdin ümumi təhsil müəssisəsində öyrəndiyi əsas xarici dil hesab edilir.
3. Xarici dilin (dillərin) tədrisi üçün müəssisədə müvafiq pedaqoji kadr potensialının olması zəruri şərt hesab edilir.
4. Bu "Qeydlər"in 3-cü bəndində nəzərdə tutulan şərt ödənilməklə bir neçə xarici dil tədris olunan ümumi təhsil müəssisəsində övladı üçün müvafiq xarici dil onun valideyni (digər qanuni nümayəndəsi) tərəfindən seçilir.
   Valideynlərin (digər qanuni nümayəndələrin) seçimi ilə bağlı zərurət yaranarsa, eyni sinifdə iki xarici dil qrupu təşkil oluna bilər. Bu halda aşağıdakılar nəzərə alınmalıdır:
   4.1. Həmin sinfin bu "Qeydlər"in 21-ci bəndində nəzərdə tutulmuş qayda üzrə 2 (iki) qrupa bölünməsi.
   4.2. Bu qrupların dil seçiminə görə bərabər şagird sayı, yaxud qismən az say fərqi ilə komplektləşdirilməsi.
   4.3.Ümumi təhsil müəssisəsində həmin xarici dillərin hər biri üzrə ən azı iki nəfər müəllimin olması.
5. İkinci xarici dil tədris Azərbaycan dilində aparılan ümumi təhsil müəssisələrində V-XI (beşinci-onbirinci), tədris digər dillərdə aparılan ümumi təhsil müəssisələrində VIII-XI (səkkizinci-onbirinci) siniflərdə tədris olunur.
6. Müvafiq pedaqoji kadr potensialı olduğu halda, ikinci xarici dilin tədrisindən və öyrənilməsindən imtina olunması yolverilməzdir.
7. İkinci xarici dilin tədrisini təmin etmək məqsədilə əməkhaqqı mövcud qaydada ödənilməklə digər təhsil müəssisələrindən müəllim dəvət oluna bilər.
8. I və V (birinci və beşinci) siniflərdən başlayaraq tədris edilən xarici dillərin növbəti siniflərdə dəyişdirilməsinə yol verilmir.
9. Əsas xarici dil tədris olunan, lakin ikinci xarici dil tədris edilməyən ümumi təhsil müəssisələrində ikinci xaricə dilə ayrılan saat (saatlar) əsas xarici dilin öyrənilməsinə verilir.
10. Xarici dil (dillər) üzrə müvafiq pedaqoji kadr potensialı olmadığı halda, əsas və ikinci xarici dillərə ayrılan saatlar aşağıdakı fənlərin tədrisinə verilir:
    10.1. İbtidai siniflərdə tədris dilinin;
    10.2. Tədris Azərbaycan dilində aparılan V (beşinci) siniflərdə hər birinə 1 (bir) saat olmaqla tədris dilinin, "Riyaziyyat" və "İnformatika" fənlərinin, tədris digər dillərdə aparılan V (beşinci) siniflərdə tədris dilinin və "Riyaziyyat" fənninin;
    10.3. Tədris Azərbaycan dilində aparılan VI-VII (altıncı-yeddinci) siniflərdə hər birinə 1 (bir) saat olmaqla tədris dilinin, "Riyaziyyat", "İnformatika" və "Azərbaycan tarixi" fənlərinin, tədris digər dillərdə aparılan VI-VII (altıncı-yeddinci) siniflərdə tədris dilinin, "Riyaziyyat" və "İnformatika" fənlərinin;
    10.4. VIII-IX (səkkizinci-doqquzuncu) siniflərdə hər birinə 1 (bir) saat olmaqla tədris dilinin, "Riyaziyyat", "İnformatika" və "Azərbaycan tarixi" fənlərinin;
    10.5. X-XI (onuncu-onbirinci) siniflərdə hər birinə 1 (bir) saat olmaqla tədris dilinin, "Riyaziyyat", "Kimya", "Fizika", "Coğrafiya" və "Azərbaycan tarixi" fənlərinin.
11. Qeyd olunan fənlər üzrə ümumi təhsil müəssisəsində ixtisaslı müəllim olmadıqda, nəzərdə tutulan saat (saatlar) pedaqoji şuranın qərarına əsasən digər fənnin (fənlərin) tədrisinə verilir.
12. Dərsdənkənar məşğələlərdə şagird sayının aşağı həddi 8 (səkkiz) nəfər olaraq müəyyənləşdirilir və bütün sinif cəlb olunur.
13. Fənnin (fənlərin) tədrisinə ayrılan saatlar istisna olmaqla hər hansı bir sinifdə şagirdlərinin sayı dərsdənkənar məşğələ qrupu təşkil etmək üçün müəyyən edilmiş normadan az olduqda həmin dərsdənkənar məşğələ qrupuna yaxın 2 və ya 3 sinfin (məsələn, V-VI, V-VI-VII və s.) şagirdlərinin cəlbinə icazə verilir. Tədris ili ərzində sinifdə (qrupda) şagird sayının azalması dərsdənkənar məşğələnin fəaliyyətinin davam etdirilməsinə təsir göstərmir.
14. Dərsdənkənar məşğələlərə ayrılan saatlar şagirdlərdə iqtisadi və maliyyə savadlılığı, mənəviyyat, insan hüquq və azadlıqları, həyat fəaliyyətinin təhlükəsizliyi və s. üzrə bilik və bacarıqların mənimsənilməsinə xidmət edən müvafiq kursların tədrisinə verilə bilər.
15. Müəyyən edilmiş ümumi təhsil müəssisələrinin II-IV (ikinci-dördüncü) siniflərində dərsdənkənar məşğələlərə ayrılan1 (bir) saat dərs cədvəlinə daxil olunmaqla "Şahmat" kursunun tədrisinə verilir.
16. Bütün azsaylı xalqların kompakt yaşadıqları ərazilərdəki ümumi təhsil müəssisələrinin I-IV (birinci-dördüncü) siniflərində, habelə ləzgi dili tədris olunan ümumi təhsil müəssisələrinin I-IX (birinci-doqquzuncu) siniflərində valideynlər və təhsilalanlar arzu etdikləri halda, dərsdənkənar məşğələlərə ayrılan 1 (bir) saat dərs cədvəlinə daxil edilməklə onların ana dilinin tədrisinə verilə bilər.
17. Tədris digər dillərdə aparılan ümumi təhsil müəssisələrinin (bu Qeydlərin 15 və 16-cı bəndlərindəki ümumi təhsil müəssisələri istisna olmaqla) I-IV (birinci-dördüncü) siniflərində dərsdənkənar məşğələlərə ayrılan 1 (bir) saat bütün sinfə tədris olunmaqla (sinif iki qrupa bölünməməklə) "Azərbaycan dili - dövlət dili kimi" fənninin tədrisinə verilir. Bu zaman şagirdlərin dövlət dilində - Azərbaycan dilində şifahi nitq bacarıqlarının formalaşmasına daha çox diqqət yetirilməlidir.
18. Füzuli, Beyləqan, Ağcabədi, Ağdam, Tərtər, Goranboy, Xocavənd, Göygöl, Daşkəsən, Gədəbəy, Tovuz, Qazax, Ağstafa, Kəlbəcər, Laçın, Cəbrayıl, Şuşa, Qubadlı, Xocalı, Zəngilan rayonlarının bütün ümumi təhsil müəssisələrinin, habelə Naxçıvan MR-in Ermənistanla sərhəddə yerləşmiş ümumi təhsil müəssisələrinin VI (altıncı) siniflərində dərsdənkənar məşğələlərə ayrılmış vaxt hesabına həftədə 1 (bir) saat olmaqla ikinci yarımildə "Mina təhlükəsinə dair maariflənmə" adlı kurs tədris olunur.
19. Müəyyən edilmiş ümumi təhsil müəssisələrinin VIII (səkkizinci) siniflərində dərsdənkənar məşğələlərə ayrılan saatlardan 1 (bir) saatı dərs cədvəlinə daxil edilməklə "Ortaq türk tarixi" kursunun tədrisinə verilir.Tədris dilindən asılı olmayaraq, bütün siniflərdə bu kurs dövlət dilində - Azərbaycan dilində tədris olunur.
20. Bütün ümumi təhsil müəssisələrinin IX (doqquzuncu) siniflərində dərsdənkənar məşğələlərə ayrılan saatlardan 1 (bir) saatı dərs cədvəlinə daxil edilməklə "Zəfər tarixi" kursunun tədrisinə verilir. Tədris dilindən asılı olmayaraq, bütün siniflərdə bu kurs dövlət dilində - Azərbaycan dilində tədris olunur.
21. Şagirdlərinin sayı 20 (iyirmi) və daha çox olan siniflər müvafiq maddi-tədris baza və ixtisas müəllimləri olduğu halda, aşağıdakı fənlərin tədrisində iki qrupa bölünür:
    21.1. Tədris digər dillərdə aparılan ümumi təhsil müəssisələrinin I-XI (birinci-onbirinci) siniflərində "Azərbaycan dili - dövlət dili kimi".
    21.2. Ümumi təhsil müəssisələrinin tədris dilindən asılı olmayaraq bütün I-XI (birinci-onbirinci) siniflərində xarici dil, tədris Azərbaycan dilində aparılan V-XI (beşinci-onbirinci), tədris digər dillərdə aparılan VIII-XI (səkkizinci-onbirinci) siniflərində ikinci xarici dil.
    21.3. Ümumi təhsil müəssisələrinin V-XI (beşinci-onbirinci) siniflərində "Fiziki tərbiyə", V-IX (beşinci-doqquzuncu) siniflərində "Texnologiya".
    21.4. Ümumi təhsil müəssisələrinin X-XI (onuncu-onbirinci) siniflərində "İnformatika" fənni üzrə praktik məşğələlər. İnformatika kabineti olmayan ümumi təhsil müəssisələrində "İnformatika" fənni üzrə praktik məşğələ keçilmir.
22. Tədris ilinin birinci yarısında sinifdə şagirdlərin sayının azalması tədris ili ərzində tədris planı ilə müəyyən edilmiş müvafiq fənlərin tədrisində sinfin iki qrupa bölünməsinə məhdudiyyət yaratmır.
23. Tədris dilindən asılı olmayaraq, ümumi təhsil müəssisələrinin bütün X-XI (onuncu-onbirinci) siniflərində "Çağırışaqədərki hazırlıq" fənni dövlət dilində - Azərbaycan dilində tədris olunur.
24. Ümumi təhsil müəssisələrində dərs məşğələləri sentyabrın 15-də başlayıb iyunun 14-də başa çatır. Dərs ili iki yarımilə bölünür:
    24.1. birinci yarımil - 15 sentyabr - 26 yanvar;
    24.2. ikinci yarımil - 1 fevral - 14 iyun.
25. Dərs ili ərzində aşağıdakı tətillər müəyyən edilir:
    25.1. 5 gün payız tətili (16-20 noyabr);
    25.2. 5 gün qış tətili (27-31 yanvar).
    25.3. İbtidai siniflər üçün 5 günlük əlavə yaz tətili (1-5 may).

# Dövlət ümumi təhsil müəssisələrində yaradılan məktəbəhazırlıq qruplarının 2023-2024-cü tədris ili üçün tədris (məşğələ) planının təsdiqi barədə

## Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin əmri

Azərbaycan Respublikasının dövlət ümumi təhsil müəssisələrində yaradılan məktəbəhazırlıq qruplarında tədris prosesinin təşkili və tənzimlənməsini təmin etmək məqsədilə "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 3.1.8-ci və 5.5.10-cu yarımbəndlərini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1. Dövlət ümumi təhsil müəssisələrində yaradılan məktəbəhazırlıq qruplarının 2023-2024-cü tədris ili üçün tədris (məşğələ) planı və "Tədris (məşğələ) planına dair qeydlər" təsdiq edilsin (1 və 2 nömrəli əlavələr).
2. İnformasiya və vətəndaşlara xidmət şöbəsi (Rəşad Xanlarov) bu əmrin surətinin Nazirliyin aidiyyəti struktur bölmə və qurumlarına çatdırılmasını təmin etsin.
3. İctimaiyyətlə əlaqələr sektoru (Cəsarət Valehov) bu əmrin "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını və Nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.
4. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Firudin QURBANOV,**
**Nazir səlahiyyətlərini müvəqqəti icra edən, nazir müavini**

*1 avqust 2023-cü il*

---

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 01.08.2023-cü il tarixli 3-29/3-2-483F/2023 nömrəli əmri ilə təsdiq edilib*

**Əlavə 1**

**Dövlət ümumi təhsil müəssisələrində yaradılan məktəbəhazırlıq qruplarının 2023-2024-cü tədris ili üçün tədris (məşğələ) planı**

| № | Məşğələlər | Həftəlik məşğələ saatlarının miqdarı | |
|---|---|---|---|
| | | Kütləvi qruplarda | Azsaylı xalqların uşaqlarından ibarət qruplarda |
| 1 | Ətraf aləmlə tanışlıq | 1 | 1 |
| 2 | Savad təliminə hazırlıq və nitq inkişafı | 2 | 4 |
| 3 | Bədii təfəkkürün inkişafı | 1 | 1 |
| 4 | Məntiqi və riyazi təfəkkürün inkişafı | 2 | 2 |
| 5 | Təsviri fəaliyyət | 2 | 1 |
| 6 | Musiqi | 2 | 1 |
| 7 | Fiziki mədəniyyət | 2 | 2 |
| | Cəmi: | 12 | 12 |

**Əlavə 2**

## Tədris (məşğələ) planına dair qeydlər

1. 2023-2024-cü tədris ilində dövlət ümumi təhsil müəssisələrində yaradılan məktəbəhazırlıq qruplarına 5 yaşı 2023-cü ildə tamam olan uşaqlar qəbul edilirlər.
2. Azsaylı xalqların uşaqlarından ibarət qruplarda məktəbəhazırlıq təhsili, əsasən, həmin uşaqların seçilən tədris dili üzrə nitq bacarıqlarının formalaşdırılmasını, eləcə də məktəbəhazırlıqla bağlı digər zəruri məsələlərin təmin olunmasını nəzərdə tutur.
3. Məktəbəhazırlıq qruplarında uşaqların sıxlığı aşağıdakı kimi müəyyənləşdirilir:
   - qəsəbə və kəndlərdə yerləşən ümumtəhsil məktəbləri üçün - ən azı 10 uşaq;
   - şəhərlərdə yerləşən ümumtəhsil məktəbləri üçün - ən azı 15 uşaq.
4. Dövlət ümumi təhsil müəssisələrində yaradılan məktəbəhazırlıq qrupunda uşaqların sayının 30 nəfərdən artıq olmasına yol verilmir.
5. Məktəbəhazırlıq qruplarında məşğələlər həftədə 4 (dörd) gün keçilir. Bir gün ərzində 3 (üç) məşğələ tədris olunur.
6. Bir məşğələnin müddəti 30 dəqiqə, məşğələlərarası fasilə 10 dəqiqə müəyyən edilir. Zehni gərginlik tələb edən məşğələlərdə, bir qayda olaraq, 3 idman dəqiqəsi keçirilir.
7. Məktəbəhazırlıq qruplarında təhsil alan uşaqlara ev tapşırıqları verilmir.
8. Məktəbəhazırlıq qruplarında məşğələlərə davamiyyət və tədris olunan mövzular müvafiq qrup jurnalında qeyd edilir, uşaqların təlim nailiyyətləri şifahi formada qiymətləndirilir və bu barədə valideynlərə məlumat verilir.
9. Məktəbəhazırlıq qruplarında məşğələlər yalnız ibtidai sinif müəllimi ixtisaslı müəllimlər tərəfindən aparılır.
10. Məktəbəhazırlıq qruplarında məşğələlər hər il oktyabrın 1-də başlayır və növbəti il mayın 31-də başa çatır. Dərs ili iki yarımilə bölünür:
    10.1. I yarımil: 1 oktyabr - 26 yanvar;
    10.2. II yarımil: 1 fevral - 31 may.
11. Dərs ili ərzində aşağıdakı tətillər müəyyən olunur:
    11.1. payız tətili: 16-20 noyabr (5 gün);
    11.2. qış tətili: 27-31 yanvar (5 gün);
    11.3. əlavə tətil: 1-5 may (5 gün).

# Elm və təhsilin inteqrasiyasında yeni mərhələ



**İsa HƏBİBBƏYLİ,**
*AMEA-nın prezidenti, akademik*

⇦ Əvvəli səh.1

Elm və Təhsil Nazirliyinin strukturuna yeni daxil olmuş elmi-tədqiqat institutlarının mövcud idarəetmə sistemindəki yerinin, mövqeyinin və imkanlarının müəyyən edilməsi, habelə ölkəmizin ali məktəblər şəbəkəsi ilə əlaqələrinin yenidən qurulması üzrə apardığı səmərəli elmi-təşkilati iş bu mərkəzi icra hakimiyyəti orqanının fəaliyyətinin əhəmiyyətli bir başlanğıcı olmuşdur. Eyni zamanda, Azərbaycan Milli Elmlər Akademiyası da elm və ali təhsil mühiti üçün keçid dövrü olan bu prosesdə artıq yeni struktur daxilində fəaliyyətini davam etdirməyə başlamış, elmi-tədqiqat institutlarının Akademiya ilə Elm və Təhsil Nazirliyi arasındakı münasibətlərinin tənzimlənməsi və elmi kollektivlərin ölkəmizin təhsil sisteminə uyğunlaşdırılmasının təmin edilməsi məqsədilə bir sıra mühüm addımlar atmışdır. Beləliklə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında Elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 28 iyul 2022-ci il tarixli Fərmanının davamlı icrası üçün etibarlı bir təməl formalaşdırılmışdır. Həmin proses nəinki akademik qurumların fəaliyyətinin təhsil sferası ilə uzlaşdırılmasında, hətta uzun illər yanaşı qurumlar kimi işini davam etdirmiş Azərbaycan Milli Elmlər Akademiyası ilə Elm və Təhsil Nazirliyinin əlaqələrinin yenidən qurulmasında mühüm addıma çevrilmişdir.

Bütün bunlarla bərabər, Azərbaycan Respublikasının elm və təhsil mühitində baş vermiş yeni reallıq bundan sonrakı inkişafın tənzimlənməsi, idarə olunması və istiqamətləndirilməsi üçün mövcud inkişaf proseslərini və perspektiv inkişafı müəyyən edən dövlət səviyyəsində qəbul edilmiş direktiv sənədlərin, yeni qaydaların qəbul edilməsi zərurətini meydana çıxarmışdır. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 24 iyul 2023-cü il tarixdə təsdiq etdiyi "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin Əsasnaməsi" ölkəmizin elm və ali təhsil şəbəkəsinin yenidən təşkil olunmasının təmin edilməsi baxımından mühüm əhəmiyyətə malik olan dövlət sənədidir. Qeyd etməyi lazım bilirəm ki, "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin Əsasnaməsi" bu sahədə mövcud dünya təcrübəsinin müddəalarının nəzərə alınması və ən başlıcası isə elm və ali təhsil sahəsində ölkəmizin reallıqlarının və perspektiv inkişafının əsas kimi qəbul edilməsi prinsipləri əsasında hazırlanmış əhəmiyyətli bir yol xəritəsidir. Belə ki, "Əsasnamə"də ali təhsil sistemi ilə əlaqədar öz əksini tapmış mühüm vəzifələr respublikamızda universitet təhsilinin yeni mərhələyə çıxarılmasına hüquqi təminat verən, geniş yol açan, bələdçilik edən müddəalardır. Ölkəmizin Prezidentinin təsdiq etdiyi "Əsasnamə"dəki ali təhsil sahəsinə dair müddəaları Ali təhsil haqqında qanunvericilik sənədinin əsas tezisləri, ana xətləri kimi qəbul etmək olar. Bundan başqa, "Əsasnamə"dəki elm və ali təhsil haqqındakı müddəalar universitetlərin və elmi-tədqiqat institutlarının Nizamnamələrinin də mahiyyətini və əhatə dairəsini müəyyənləşdirməyə imkan verir.

Eyni zamanda, "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin Əsasnaməsi" bu mərkəzi icra hakimiyyəti orqanının tabeliyində olan elmi-tədqiqat institutlarının fəaliyyətinin müasir tələblər səviyyəsində tənzimlənməsinə və istiqamətləndirilməsinə təminat verən müddəalar kimi mühüm əhəmiyyətə malikdir. "Əsasnamə"də ana maddələr kimi yer almış "elm və təhsil müəssisələrinin fəaliyyətinin tənzimlənməsi üçün tədbirlər görmək"; "elmi fəaliyyətlə tədris prosesinin inteqrasiyasını təmin etmək"; "elm və təhsil müəssisələrində nəticəyönlü, şəffaf və səmərəli idarəetmə modelini formalaşdırmaq və bu prosesdə müasir idarəetmə texnologiyalarından istifadə etmək"; "elm və təhsil müəssisələri ilə xarici elm və təhsil müəssisələri arasında mübadilə proqramlarını həyata keçirmək" və sair kimi müddəalar hazırkı mərhələdə təhsil sferasında elmi tədqiqat mühitini formalaşdırmağa və inkişaf etdirməyə geniş və münbit şəraitin yaradılmasına xidmət edir. Fikrimizcə, qeyd edilən müddəalar hər biri ayrılıqda elm və ali təhsil mühitinin inkişaf etdirilməsi üçün zəruri olan fərqli bir istiqamətin yenidən qurulmasına, təkmilləşdirilməsinə və inkişaf etdirilməsinə yol açır. Həmin müddəaların işığında elmin və təhsilin müasir mərhələdəki əsas problemlərini təhlil edib qiymətləndirmək və inkişaf etdirmək üçün əməli addımlar atmaq mümkündür.

Diqqətəlayiq cəhətlərdən biri də ondan ibarətdir ki, "Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin Əsasnaməsi"ndə elm və təhsilin qarşılıqlı inteqrasiyası məsələsinə də xüsusi fikir verilmişdir. Çünki uzun illər ərzində ölkəmizdə yanaşı qurumlar kimi fəaliyyət göstərmiş Akademiya ilə Təhsil Nazirliyi dövründə elm və təhsilin inteqrasiyası pərakəndə şəkildə aparılmış, tərəflərin arzusu və ya fərdi təşəbbüsləri sayəsində təşkil olunmuşdur. Halbuki elmi nailiyyətlərin, mühüm elmi nəticələrin ölkəmizin ali və orta təhsil proseslərinə daha çevik və fəal şəkildə daxil olması, dərsliklərdə və proqramlarda öz əksini tapması, əsas meyarlardan birinə çevrilməsi müstəqil Azərbaycanda geniş dünyagörüşə, ən yeni elmi-texnoloji bacarıqlara və vərdişlərə yiyələnmiş yeni nəsillərin yetişdirilib hazırlanmasına mühüm töhfə verə bilər. Elmin və tədrisin, təhsilin əlaqələndirilməsi, eyni zamanda ali təhsil mühitindən müasir təfəkkürə və yüksək intellektual xüsusiyyətlərə malik gənc qüvvələrin elmi qurumlara gəlməsinə fərqli bir imkan açar. Nəticədə elm və təhsilin inteqrasiyası ölkəmizdə tam yeni təfəkkürə, ən müasir bacarıqlara, zəngin ideya-mənəvi xüsusiyyətlərə malik gənc nəsillərin yetişib formalaşdırılmasına, idarəetmə proseslərində özünəməxsus yer tutmasına geniş meydan açacaqdır. Yeni yaradılmış Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin qarşısında duran əsas vəzifələrdən biri də məhz bundan ibarətdir. "Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin Əsasnaməsi"ndə verilmiş "elm və təhsil müəssisələrində aparılan elmi tədqiqatların müasir standartlar səviyyəsinə çatdırılmasına, elmi tədqiqat işlərinin nəticələrinin tədris prosesində və istehsalatda tətbiqinə kömək göstərmək, elmi informasiya sisteminin gücləndirilməsi, beynəlxalq elmi əlaqələrin dərinləşdirilməsi sahəsində tədbirləri təşviq etmək" kimi hüquqi cəhətdən əsaslandırılmış müddəaların "Agentliyin vəzifələri" maddəsində xüsusi yer tutması nəinki elm və ali təhsil sahəsində mövcud boşluqları aradan qaldırmağa kömək edəcək, hətta bu istiqamətdəki addımların ölkədaxili qarşılıqlı elmi əlaqələr səviyyəsindən dünya elm və təhsil mühiti ilə münasibətlərin yenidənqurulması və daha da inkişaf etdirilməsi mərhələsinə çatdırılmasına sanballı töhfələr verəcəkdir. Bu isə öz növbəsində, həm ali təhsil sistemində və həm də Akademiya mühitində yeni bir canlanmaya təkan vermək, yeniləşmə meyillərini qüvvətləndirmək imkanlarına malik olan addımların atılmasını təmin etmək deməkdir. Deməli, elm və təhsilin inteqrasiyasının təmin olunması Elm və Təhsil Nazirliyi və onun tabeliyində olan elmi müəssisələr üçün olduğu kimi, Azərbaycan Milli Elmlər Akademiyası üçün də faydalı və əhəmiyyətli faktorlardır. Bütövlükdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 24 iyul 2023-cü il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin Əsasnaməsi" ölkəmizdə elm və təhsil qurumlarının vahid amal naminə qarşılıqlı əlaqə şəraitində fəaliyyətlərini davam etdirmələrinə təminat verir və qarşıda yeni üfüqlər açır, ən müasir trendlərə və hədəflərə çatmağa zəmanət verir.

Hazırda üzərində son təkmilləşdirmə işləri gedən Azərbaycan Milli Elmlər Akademiyasının yeni Nizamnaməsi də öz növbəsində ölkəmizdə elm və təhsil sahəsində qarşılıqlı etimad mühitinin və birgə fəaliyyətin təmin olunmasına xidmət edən müddəalar üzərində formalaşdırılmışdır. Təklif olunan Nizamnamə mətnində akademik elmi qurumun davamlı və dayanıqlı ənənələrinin yaradıcı şəkildə inkişaf etdirilməsi ilə bərabər, həm də Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetməni təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" imzaladığı 28 iyul 2022-ci il tarixli Fərmanından irəli gələn müasir reallıqlar öz əksini tapmışdır. Bu mənada yeni Nizamnamə müasir tarixi şəraitdə AMEA-da yenidən təşkilatlanmanı və bu elmi qurumda islahatların həyata keçirilməsini tənzimləməklə bərabər, elm və təhsilin qarşılıqlı şəkildə inkişaf etdirilməsinə də geniş yol açır. Bu mənada Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsi ilə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin Əsasnaməsi bir-birini tamamlayan və qarşılıqlı inteqrasiya və inkişafa xidmət edən direktiv sənədlər kimi mühüm əhəmiyyətə malikdir. Bütün bunlar öz növbəsində hazırda qüvvədə olan "Təhsil haqqında", "Elm haqqında" qanunlarda da müvafiq dəyişikliklərin edilməsi zərurətini meydana çıxarır. Qanunvericilik sənədlərində aparılacaq təkmilləşmə və yeniləşmələr son nəticədə Azərbaycanda elmin və təhsilin zamanın çağırışlarına uyğun olaraq yenidən qurulmasına, müasirləşdirilməsinə, modernləşdirilməsinə səbəb olacaqdır.

**B**eləliklə, artıq Azərbaycan Respublikasında yeni elm və təhsil mühiti formalaşmaqdadır. Bu isə Azərbaycanda həm elmi fəaliyyətin, Akademiya quruculuğunun və həm də təhsil mühitinin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu təsdiq edir. Dövlət səviyyəsində həyata keçirilən, tənzimlənən və istiqamətləndirilən bu genişmiqyaslı islahatlar geniş mənada Prezident İlham Əliyevin səyləri ilə yeni intibah mərhələsinə çatdırılmış müstəqil Azərbaycan dövlətinin daha da inkişaf etdirilməsi yollarında alimlərimizin və müəllimlərimizin özlərinin məsuliyyətli vəzifələrini və mənəvi borclarını yerinə yetirmələri baxımından açılan yeni imkandır. İnanırıq ki, elm və təhsil işçiləri yaradılmış müasir imkanlardan səmərəli istifadə edərək möhtərəm Prezidentimiz və müstəqil dövlətimiz qarşısında öz borclarını ləyaqətlə həyata keçirmək üçün birlikdə, vahid cəbhədə səfərbər olunacaq, inamla və məsuliyyətlə çalışaraq, dövlətimizin daha da möhkəmləndirilməsi və inkişaf etdirilməsi üçün bütün qüvvələrini sərf edəcəklər.

# Dövlət Proqramı təqaüdçülərinin uğur hekayələri



## "Qəbul olduğum universitetin bu ixtisasında oxuyacaq ilk azərbaycanlı olacağım üçün çox qürurlandım"

⇦ Əvvəli səh.1

ABŞ-ın "Duke Univerity"-nin "Statistika və verilənlərin təhlili" ixtisası üzrə magistr təqaüdünü qazanan Günel Ağakişiyeva 2018-ci ildə 20 nömrəli məktəb-liseyi bitirərək DİM-in mərkəzləşdirilmiş qəbul imtahanında I ixtisas qrupu üzrə 619 bal toplayaraq Azərbaycan-Fransız Universitetinin "Geofizika mühəndisliyi" ixtisasına qəbul olub. 2022-ci ildə UFAZ-ı fərqlənmə ilə bitirərək həm Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin, həm də Strasburq Universitetinin diplomlarını əldə edib.

Universitet illəri boyunca hər zaman müxtəlif yerli və beynəlxalq layihələrdə iştirak edərək bilik və bacarıqlarını mümkün qədər çox inkişaf etdirməyə, şəbəkəsini genişləndirməyə çalışan Günel Ağakişiyeva deyir: "Azərbaycan Mühəndislər Birliyi və Azərbaycan Elm Assosiasiyası kimi ölkə əhalisinin elm üzrə maariflənməsinə töhfə verə biləcəyim yerlərdə könüllü olaraq çalışmışam. Bununla yanaşı, süni intellekt üzrə beynəlxalq bir startupda çalışaraq dünyada 10 milyon insanın faydalana bilməsi üçün "İntroduction to Machine Learning", "İntroduction to Deep Learning" kimi süni intellekt kursların yaradılmasına texniki tərəfdən dəstək olmuşam. Bundan əlavə, 2021-ci ildə Bakı Ali Neft Məktəbi və bp şirkətinin ortaq layihəsi olan "Mühəndislər üçün Biznes Təhsili" layihəsini uğurla bitirmişəm. 2022-ci ildə Polşada keçirilən "Perspektywy Women in Tech" konfransında iştirak üçün təqaüd qazanmışam. Məzun olduqdan sonrakı 3 ay müddətində isə Azərbaycan Beynəlxalq Bankı, Paşa Sığorta və Kapital Bank da daxil olmaqla bir çox şirkətdən data sahəsi üzrə iş təklifi almışam. Paşa Sığorta və Azərbaycan Beynəlxalq Bankında çalışmışam. Hazırda isə ATL Akademiyada "Məhsul sahibliyi və layihələrin idarəedilməsi" üzrə tam təqaüdlə təhsil alıram".

Günel Ağakişiyeva bakalavr dövründən magistr təhsilini xaricdə almaq arzusunda olub. Təhsilin keyfiyyəti və dünyada populyarlığı səbəbindən ABŞ-da olan bir çox universitetlərin seçimləri sırasında olduğunu, lakin bu ölkədə yüksək reytinqli universitetdə təhsil almağın xeyli maddi vəsait tələb etdiyini dilə gətirib.

Söhbət zamanı "Təqaüd qazanacağınızı gözləyirdiniz?"-sualına cavab olaraq o bildirib: "Düzünü desəm, bu, mənim üçün gözlənilən bir hal idi. Bunun səbəbi universitet həyatım boyunca iştirak etdiyim layihələr, qəbul olduğum universitetin dünya sıralamasında reytinqi, günümüzün ən populyar ixtisasına qəbul olmağım və müsahibəmin uğurlu keçməsi idi. Təbii ki, nəticələri gözləyərkən hər bir namizəd kimi çox həyəcanlı idim. Ancaq nəticələr açıqlanandan sonra qəbul olduğum universitetin bu ixtisasında oxuyacaq ilk azərbaycanlı olacağım üçün çox qürurlandım və möhtəşəm hisslər yaşadım".

Təhsillə bağlı gələcək planlarına gəldikdə isə o qeyd edib ki, əslində qısa və uzunmüddətli hədəflərim çoxdur, lakin hazırda elə bir dövrdə yaşayırıq ki, dünyada çox sürətli dəyişikliklər baş verir. O, qətiyyətlə bildirib ki, Duke Universitetində alacağı təhsillə Azərbaycana çox böyük töhfələr vermək arzusundadır.

## "Bu proqram akademik və peşəkar bilik və bacarıqlarını təkmilləşdirmək arzusunda olan hər bir Azərbaycan vətəndaşı üçün unikal imkanlar yaradır"



Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının "University of Manchester"-nin "Arxitektura və dizayn" ixtisası üzrə magistr təqaüdü qazanan Camal Əhmədov: "İlk növbədə qeyd edim ki, bakalavr təhsilimi 2012-2016-cı illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında "Politologiya" ixtisası, birinci magistr təhsilimi isə 2016-2018-ci illərdə Bakı Dövlət Universitetində "Beynəlxalq münasibətlər və diplomatiya" ixtisası üzrə almışam. Ötən müddət ərzində vətəndaşlarla iş, QHT və gənclər sektoru, səhiyyə və təhsil kimi sahələr üzrə fəaliyyət göstərən müxtəlif dövlət qurumlarının beynəlxalq əlaqələr istiqamətində çalışan müvafiq departamentlərində əmək fəaliyyəti ilə məşğul olmuşam.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə əmək bazarının tələblərinə və müasir çağırışlara cavab verəcək rəqabətqabiliyyətli insan kapitalının yetişdirilməsi və peşəkar kadrların potensialının artırılması istiqamətində dövlət siyasəti davamlı şəkildə icra olunmaqdadır. Görülən tədbirlərin davamı olaraq həyata keçirilən 2022-2026-cı illər üçün Dövlət Proqramı əvvəlki dövr ərzində həyata keçirilmiş analoji proqramların təcrübəsinə əsaslanaraq ölkə gəncləri, eləcə də akademik və peşəkar bilik və bacarıqlarını təkmilləşdirmək arzusunda olan hər bir Azərbaycan vətəndaşı üçün unikal imkanlar yaradır.

Dövlət Proqramı çərçivəsində 2023-2024-cü tədris ilində Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının nüfuzlu ali təhsil müəssisələrindən biri olan Mançester Universitetində təhsil almaq üçün seçildiyimə dair məlumatı böyük sevinc və qürur hissi ilə qarşıladım. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında "Böyük Qayıdış" prosesi çərçivəsində həyata keçirilən bərpa və yenidənqurma işləri, Bakı şəhəri və bölgələrin tarazlı inkişafı, eləcə də Birləşmiş Millətlər Təşkilatının "Dayanıqlı İnkişaf Məqsədləri"nin icrası kontekstində səmərəli şəhər quruculuğuna verilən əhəmiyyəti nəzərə alaraq, "Şəhər dizaynı və beynəlxalq planlama" ixtisası üzrə təhsil almaq imkanını əldə etmək həqiqətən qürurvericidir".

Camal Əhmədov deyir ki, Mançester Universitetində magistr təhsilini başa vurduqdan sonrakı dövr üçün əsas məqsədi vətənə qayıdaraq "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər", "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" və digər müvafiq sənədlərdə əksini tapmış tələb və çağırışlara uyğun olan, eləcə də vətəndaşlarımızın ehtiyaclarını qarşılayan dayanıqlı və inklüziv dizayn həllərinin tətbiqinə töhfə verməkdir.

## "Azərbaycana qayıtdıqdan sonra elektronika sənayemizə töhfə verəcək bir mühəndis olmaq istəyirəm"



Dövlət Proqramı təaqüdünü qazanan digər gəncimiz Fuad Məmmədzadədir. O, İsveç Krallığının "Lund University"-nin "Daxili elektronika mühəndisliyi" ixtisası üzrə magistr təqaüdü qazananlardandır. Fuad 2018-ci ildə Bakı Ali Neft Məktəbinin "Proseslərin avtomatlaşdırılması mühəndisliyi" ixtisasına 695 balla daxil olub.

O, I kursun sonunda Microsoft və Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin birgə yaratdığı İKTLAB mərkəzində təcrübəçi olaraq işləyərək "Bakutel" sərgisinə prototip məhsul çıxardığını qeyd edib. Əlavə olaraq bildirib ki, "Teknofest - 2022" CANSAT yarışında 5 nəfərlik İstiqlal komandasının kapitanı olub və komandası I yeri qazanıb. Fuad Məmmədzadə həmin ilin yayında isə İsveçrədə yerləşən CERN-Avropa Nüvə Araşdırmaları Təşkilatında yay praktikasında iştirak etdiyini dilə gətirib.

Fuad Məmmədzadə: "Öz bilik-bacarıqlarım və təcrübələrimə əsasən təqaüdü qazanma şansımın olduğunu düşünürdüm. Cavablar çıxana qədər olan dövrdə isə qeyri-müəyyənlikdən həyəcan və narahatlıq keçirdim. Narahatlığımın səbəblərindən biri də sənədləşdirmə prosesini vaxtında yerinə yetirib dərslərə çata bilməməyimlə əlaqədar idi. Çünki qəbul olduğum Lund Universitetində tədris avqustun 28-i başlayır. Lakin təhsil prosesinin uğurlu olacağına əminəm. Qarşıdakı illərdə təhsilimi yüksək mərhələlərə daşımaq niyyətindəyəm. Azərbaycana qayıtdıqdan sonra elektronika sənayemizə töhfə verəcək bir mühəndis olmaq istəyirəm".

**Tünzalə QULİYEVA**

# SERTİFİKATLAŞDIRMA: peşəkar müəllim, keyfiyyətli təhsil



⇦ Əvvəli səh.1

## 63 yaşlı müəllim sertifikasiya imtahanı verəcəyi günü səbirsizliklə gözləyir

### “Müəllim hər gün dərs dediyi fəndən imtahan verməkdən qorxmamalıdır”

“Ümumiyyətlə, sertifikasiya imtahanlarının keçirilməsinə etirazı başa düşmürəm”, - deyir. Onun fikrincə, bu imtahanın müəllimlərin karyerasında çox ciddi əhəmiyyəti var: “Müəllim hər gün dərs dediyi fəndən imtahan verməkdən qorxmamalıdır. Ən əsası, biliyi varsa, müəllim özünü sınamaq istəyəcəkdir. Bu, həm də müəllim kimi nüfuzunun artmasına xidmət edər. Valideynlər imtahan nəticələrini bilir və müəllimə daha çox hörmət edirlər”.

Sertifikasiya öncəsi mühit də ürəyincədir: “Sertifikasiyanın yaratdığı mühit mənə çox xoş gəlir. Hamı oxuyur, təkrar edir, imtahana hazırlaşır. Mən də səbirsizliklə gözləyirəm ki, nə vaxt imtahan verəcəyəm”.

### “Azərbaycanı sevirəm, sevgimi şagirdlərimə də ötürürəm”

Vera Silukova Xaritionovna imtahanla bağlı özünə bu qədər güvənməsini müəllimlik fəaliyyəti ilə əsaslandırır. O, 1984-cü ildə M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutunu (indiki Bakı Slavyan Universiteti) bitirib. Rus bölməsində Azərbaycan dili və ədəbiyyat fənnini tədris edib. 8 il sonra ixtisasdəyişmə kursuna qatılıb və müəllimlik fəaliyyətinə yenə tədrisi rus dilində aparılan bölmədə ibtidai sinif müəllimi kimi davam edib: “Uşaqları çox sevirəm. Çalışıram ki, dərsi onlar üçün maraqlı edim. Nəticə etibarilə buna nail oluram da. Bu il IV sinifdə dərs deyirdim və sinfimdə 43 şagird vardı. Onlardan 35 nəfəri fəal uşaqlar idi və çox keyfiyyətli dərslər keçdik onlarla. Hər biri fərqli nailiyyətlər qazanırlar. Çalışıram şagirdlərimə bilik də verim, tərbiyə də. Oyunlar, viktorinalar qurur, həyatda onlara lazım olacaq şeyləri mübarizə şəraitində öyrətməyə çalışıram. Ona görə də hər bir şagirdim rəqabəti sevir, rəqiblərinə necə davranmağı bilirlər”.

Vera müəllim riyaziyyatı sevir, sevdirir: “Filoloq olsam da, riyaziyyatı da çox sevirəm. Bu fənni şagirdlərimə də sevdirməyi bacarıram. Yuxarı sinfə keçən şagirdlərimdən riyaziyyat müəllimləri həmişə razılıq edir, fərqləndiklərini deyirlər.

İndiyədək olan nailiyyətlərinə gəlincə, 40 ilin müəllimi üçün ən böyük nailiyyət yetirmələridir: “Artıq 40 ildir müəlliməm. Bir insan kimi şəxsi nailiyyətim çox deyil. Amma müəllim kimi qürur duyduğum çox şagirdim var. Olimpiada qalibləri, müsabiqə laureatları, ictimai fəaldırlar. Harda ictimai tədbir varsa, şagirdlərim o tədbirin aparıcı heyətində iştirak edirlər”.

Sadəcə uşaqları yox, Azərbaycanı da çox sevir: “Rus bölməsində dərs desəm də, Azərbaycan dilini də sərbəst bilir, danışıram. Çalışıram hər il dil biliyimi təkmilləşdirim. Bu, həm də ona görədir ki, Azərbaycanı çox sevirəm. Bu sevgimi şagirdlərimə də uğurla ötürürəm”.





## *Qönçə Ələkbərova:* “Pedaqoji stajı 3 il olan təhsilverənlərin sertifikatlaşdırma prosesinə cəlbi uğurlu qərardır”

### “Bu imtahana maksimum nəticə üçün qatılacağam”

Avqustun 29-da ötən il keçirilən sertifikatlaşdırma prosesində ibtidai sinif üzrə uğur qazanmayan təhsilverənlər, avqustun 31-də isə ibtidai sinif müəllimliyi, Azərbaycan dili və ədəbiyyat fənləri üzrə pedaqoji stajı 3 il olan təhsilverənlər, həmçinin müsabiqədə könüllü iştirak etmək istəyən 60 və daha yuxarı yaşda olan müəllimlər test imtahanı mərhələsinə cəlb olunacaqlar.

İbtidai sinif müəllimi Qönçə Ələkbərova pedaqoji stajı 3 il olan təhsilverənlərdən biri kimi avqustun 31-də sertifikatlaşdırma imtahanında iştirak edəcək: “Son 5 ildə hər il müəllimlərin işə qəbulu imtahanlarında iştirak etmişəm. Ötən ildən 95.81 balla Bakı şəhəri Nəsimi rayonundakı 111 nömrəli tam orta məktəbdə çalışıram. “Təhsil haqqında” Qanunda son dəyişiklikdən sonra bu il sertifikasiya imtahanına qatılacağam”.

O, 111 nömrəli tam orta məktəbdə 1 ildir fəaliyyət göstərsə də, müəllimlik fəaliyyətinə 2017-ci ildən Saatlı rayonu, Potubəyli kənd ümumi orta məktəbində başlayıb: “Mənimlə eyni vaxtda işə qəbul olunanlar ötən il sertifikasiya imtahanlarına qatıldılar. Mən MİQ-də yeni iştirak etdiyim üçün həmin imtahana qatıla bilməmişdim. Yeni qərar tam mənim üçün oldu”.

Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollecinin “İbtidai sinif müəllimliyi” ixtisası üzrə məzunu olan Qönçə Ələkbərova sertifikasiya imtahanının gənc müəllimlər üçün faydalı olacağını düşünür: “3 il pedaqoji təcrübəsi olanların sertifikatlaşdırma imtahanlarında iştirak qərarı ən çox yeni işə qəbul olunan müəllimlər üçün faydalı olacaq. Həm maddi baxımdan, həm də motivasiya baxımından uğurlu qərar olduğunu düşünürəm. Bu qərardan mən də faydalanacağam, avqustun 31-də imtahanda iştirak edəcəyəm. 1 ay vaxt qalmasına baxmayaraq, yenidən biliklərimi təkrarlayıram. Çünki bu imtahana maksimum nəticə üçün qatılacağam. Ona görə də mənim üçün məsuliyyəti çox böyükdür, çünki potensialımı bilib girirəm imtahana. Bildiyiniz kimi, 2022-ci ildə MİQ imtahanlarında iştirak edib, ölkədə üçüncü ən yüksək bal toplamışam. İnanıram ki, sertifikasiya imtahanında da nə özümü, nə də mənə böyük ümidlə baxanları yanıldaram”.

Elə bu məsuliyyətin böyüklüyüdür ki, sertifikasiya həyəcanını artıq ürəyində hiss edir: “Təcrübə, üstəgəl bilik, bunlar əsas şərtdir. Buna baxmayaraq, həyəcan da hiss edirəm və bu, çox gözəl həyəcandır, bunu idarə etmək isə ondan da gözəldir. Dəfələrlə imtahanlarda iştirak etmişəm. Hər iştirakım mənə nəsə qazandırıb. Gələcək fəaliyyətim, bilgilərim, vaxtımı düzgün bölüşdürmək, öz imkanlarıma tənqidi yanaşma kimi xüsusiyyətlərimi inkişaf etdirməyimə kömək edib. Ona görə hesab edirəm ki, sertifikasiyada iştirak etmək müəllimlərin öz üzərində işləmələrinə səbəb olan amillərdəndir”.

Q.Ələkbərova üçün müəllimliyin anlamı inkişaf deməkdir: “Mənim üçün müəllim olmaq təkcə sinifdə fənni tədris etməkdən ibarət deyil. Şagirdlərimə həm də incəsənət yönümlü inkişafı aşılamaq, onların bu cür bacarıqlarını kəşf etmək xüsusi zövq verir. Əyləncəli, musiqili dərslərdən zövq alırıq”.

**Ruhiyyə DAŞSALAHLI**



Son illər hər bir sahədə olduğu kimi təhsil sistemində də islahatlar sistemli xarakter almışdır. Bu islahatlar Azərbaycanda təhsilin inkişafına, Elm və Təhsil Nazirliyinin yenidən qurulmasına, idarəetməsinin demokratikləşməsinə, onun inzibatçılıq, hüquqi-normativ bazasının və maddi-texniki təminatının təkmilləşməsinə, həmçinin təhsilalanların dünya standartlarına uyğun təhsil almasına, yüksəkixtisaslı kadrların formalaşmasına, neft kapitalının yeni nəsil insan, intellekt kapitalına və peşəkarlığın inkişafına çevirilməsinə yönəlmişdir. Prezident İlham Əliyev Azərbaycan müəllimlərinin XV qurultayının iştirakçılarına ünvanladığı təbrik məktubunda demişdir: “Müəllim əməyinin stimullaşdırılması tədbirləri nəticəsində cəmiyyətimizdə müəllimin nüfuzu yüksəlmiş, istedadlı gənclərin müəllimlik peşəsinə marağı əhəmiyyətli dərəcədə artmışdır. Qazanılan uğurlar dövlətin təhsil sahəsinin davamlı inkişafına diqqət və qayğısının təzahürü, eyni zamanda Azərbaycan müəlliminin fədakar əməyinin bəhrəsidir”.

# Təhsil islahatları kolleclərə yeni nəfəs verib

## Azərbaycan Dövlət Pedaqoji Kolleci yeni hədəflərə doğru

Təhsil sistemində aparılan mütərəqqi islahatlar orta ixtisas təhsili pilləsindən də yan keçməmişdir. Belə ki, ölkə iqtisadiyyatının sürətli inkişafı və əmək bazarının tələblərinin dəyişməsi bu tələblərə uyğun təhsilin məzmununu yeniləmək, orta ixtisas təhsili pilləsində yeni ixtisaslar üzrə kadr hazırlığını aparmaq və təhsilin bir pilləsindən və ya səviyyəsindən digərinə keçiddə müvafiq ixtisaslarda tədris olunan fənlərin məzmunu və kreditlərini uyğunlaşdırmaq zərurətini yaratmışdır. Bu zərurət isə orta ixtisas təhsilinin inkişafı ilə bağlı Elm və Təhsil Nazirliyi tərəfindən yeni yanaşmalar tətbiq edilməsinə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarlarına əsasən, kolleclərin birləşməsinə, regional kolleclərin yaradılmasına, kolleclərin profillərinə uyğun ali təhsil müəssisələrinin nəzdinə verilməsinə, həmin kollec və ali təhsil müəssisələrinin ixtisaslarının unifikasiya olunmasına, orta ixtisas təhsili müəssisələrinə bakalavrların, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə müvafiq ixtisaslar üzrə subbakalavrların qəbul edilməsinə, bakalavriat səviyyəsini (əsas (baza ali) tibb təhsilini) başa vurmayan və ali təhsil müəssisəsindən xaric olunmuş şəxslərin də təhsillərini orta ixtisas təhsili müəssisələrində davam etdirməsinə və orta ixtisas təhsili pilləsinin müvafiq ixtisasları üzrə yeni təsnifatın təsdiq edilməsinə təkan vermişdir. Həmçinin subbakalavr üzrə mütəxəssis hazırlığının keyfiyyətinin artırılmasına, xaricdə müvafiq təhsil pilləsində təhsil almış şəxslərin ixtisaslarının, eləcə də diplomlarının qarşılıqlı tanınmasına və tələbə mobilliyinin asanlaşdırılmasına müsbət təsir göstərmişdir.

Nəticə etibarilə, Azərbaycanda təhsil sektorunda, o cümlədən də orta ixtisas təhsili pilləsində aparılan islahatlar, onun Azərbaycan təhsil sistemində tutduğu mövqe, bu təhsil pilləsi və səviyyəsinin keyfiyyəti, nüfuzunun get-gedə artması və s. təhsildə fasiləsizlik və varislik prinsipi həyata keçirilməsinə təkan verir. İkincisi, ümumtəhsil müəssisələri məzunlarının heç də hamısı ali məktəbə daxil olmur. Orta məktəbi bitirənlərin bir qismi ali, digər qismi isə bu və ya digər səbəbdən orta ixisas təhsili müəssisələrini seçməklə təhsillərini davam etdirirlər. Bəzən sosial şəbəkələrdə və bəzi müzakirələrdə əsasən bilikləri məhdud olan şəxslərin orta ixtisas təhsilini seçməsi kimi iddialar səslənir. Əslində isə bu səviyyəyə uyğun biliklərə malik şəxslər, yaxud maliyyə imkanları bu səviyyəyə uyğun şəxslər bu səviyyəni seçirlər. Bizim daxili araşdırmalarımız isə göstərir ki, ümumi orta təhsil səviyyəsində (ümumi orta təhsil bazasından) müraciət edən şəxslər sadəcə vaxt və maliyyə imkanları səbəbindən bu səviyyəyə müraciət edirlər və onların əksəriyyəti kifayət qədər biliyə və istedada malikdirlər.

Yeri gəlmişkən, ali təhsil müəssisələrinə tələbə qəbulu ilə bağlı bir faktı xatırlatmaq yerinə düşər. Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə ali təhsil müəssisələrinə sənəd qəbulunun başa çatması və buraxılış imtahanlarına həsr olunmuş mətbuat konfransında bildirib ki, “Bu il (2023) 107188 abituriyent ali və ya orta ixtisas təhsili müəssisəsinə qəbul olmaq üçün öz ərizəsini təsdiq edib. Ötən il bu rəqəm 99538 nəfər idi. 83717 abituriyent ərizəsində həm ali, həm də tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq istədiyini qeyd edib”. Bu fakt onu göstərir ki, günümüzdə orta ixtisas təhsili pilləsinə münasibət müsbət mənada dəyişir, məzunlara subbakalavr təhslindən gələcəkdə tramplin kimi istifadə etməyə imkan verir. Başqa sözlə, tədrisin keyfiyyəti və məzunların səviyyəsi təhsil pilləsi ilə ölçülmür.

Belə bir müqayisə aparaq. Məsələn, ali məktəbə qəbul olmaq istəyən iki abituriyentdən biri orta ixtisas təhsili müəssisəsində müəllimlik ixtisasını, digəri isə ümumtəhsil müəssisəsini bitiribsə, onlardan hansının ali təhsil müəssisəsi üçün daha faydalı olması şübhə doğurmaz. Çünki kollec məzunu müvafiq ixtisas üzrə bilik, bacarıq və səriştələrə malikdir və onun ATM-ə qəbul olması gələcəkdə daha yaxşı mütəxəssis olmasına zəmin yaradır.

Üçüncüsü, son 10 illiyin təcrübəsinə istinad etsək, orta ümumtəhsil məktəblərinə müəllimlərin işə qəbulu, təhsilverənlərin sertifikatlaşdırılması qaydaları da şəffaflıq və obyektivlik baxımdan xeyli təkmilləşmiş və mərkəzləşdirilmiş qaydada həyata keçirilməkdədir. Məzunların hansı təhsil pilləsini (kollec, bakalavr və ya magistratura) bitirməsindən asılı olmayaraq işə qəbulu hamı üçün bir yolla - müsabiqə yolu ilə həyata keçirilir. Demək, işəgötürənlər məzunların təhsilin hansı pilləsini bitirdiyinə deyil, kadrların bilik, bacarıq və səriştələrinə diqqət yetirməlidirlər. İldən-ilə müəllim işləmək üçün müraciət edənlərin sayının xeyli artması, ATM-lərə qəbul imtahanında 500-dən yuxarı bal toplayan gənclərin ixtisas seçərkən müəllimlik peşəsinə üstünlük verdikləri prosesin obyektiv və şəffaf keçirilməsinə olan etimaddan xəbər verir və dolayısı ilə, Azərbaycan təhsilinin inkişafına, onun keyfiyyət göstəricilərinin artırılmasına səbəb olur.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələr üzrə aparılan islahatların yeni dalğası fonunda təhsilin müasir inkişaf mərhələsində özünəməxsus yeri, nüfuzu və müsbət ənənələri olan, təhsil islahatlarını, standart və proqramlarını müvəffəqiyyətlə yerinə yetirən, keyfiyyət mərhələsinə uğurla keçid edən, gənclərin milli-mədəni irsə, azərbaycançılıq ideyasına, vətənpərvərlik ruhuna uyğun təlim-tərbiyə almasına və maariflənməsinə xidmət edən, əmək bazarına yüksək peşəkarlığa və kompetensiyalara malik, rəqabətədavamlı mütəxəssis və dinamik kadrlar hazırlayan ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedoqoji Kollecində də bir sıra təqdirəlayiq işlər görülməkdədir.

Gənclərə diqqət və qayğı dövlət siyasəti yeni nəslə etimaddan irəli gəlir. Azərbaycan Respublikasının Təhsil haqqında Qanununun 4-cü maddəsində “milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli mütəxəssis-kadrlar hazırlamaq” təhsilin əsas məqsədindən biri kimi göstərilir. Bu məqsədin icrası məqsədilə, tələbələrimizin milli maraqları hər şeydən öndə tutması, tarixi həqiqətlərimizi və 44 günlük Vətən müharibəsində qazandığımız Zəfər tariximizi əsas istinad yeri kimi bilməsi məqsədilə artıq üç ildir ki, ənənə halını almış tədbirlər planı həyata keçirilir. Zəfər bayramına həsr olunmuş mədəni-kütləvi tədbirlər, maarifləndirici görüşlər, şəhid ailələri ilə görüşlər, ekskursiyalar təşkil edilir, müxtəlif sosial layihələr həyata keçirilir, müəllimlərimiz tərəfindən elmi-publisistik əhəmiyyətli məqalələr yazılır. Həmçinin, II Qarabağ müharibəsində şəhid olmuş məzunlarımızın xatirəsinin əbədiləşdirilməsi üçün 2021-ci il yanvarın 8-də kollecimizdə “Qəhrəmanlıq zirvəsi” adlı auditoriya açılmışdır.

2023-cü ildə müstəqil Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyini təntənəli şəkildə qeyd etməyi kollektivimiz Ulu Öndərin ruhu qarşısında hesabatı kimi qəbul etmiş və müxtəlif struktur bölmələri bir sıra tədbirlər: “dəyirmi masa” və seminarlar, bilik yarışları, “Heydər Əliyev və Azərbaycan təhsili” adlı dərs-tədbirlər və təlimlər, “Haqdan gələn səs-Dahi” adlı tədbir-tamaşa, “Can Azərbaycan” və “Qüdrətli Lider” adlı mədəni-kütləvi tədbirlər keçirmiş, rəsm sərgiləri, paytaxt və regionların Heydər Əliyev Mərkəzlərinə ekskursiyalar təşkil etmiş, tələbələrimiz ayrı-ayrı idman növləri üzrə turnir və yarışlarda, peşə və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında keçirilən “Sən elə bir zirvəsən” adlı respublika ifa müsabiqəsində müxtəlif nominasiyalarda qalibiyyət əldə etmişlər, Yasamal rayonunun 201 saylı Körpələr evi-uşaq bağçasında pedaqoji təcrübə keçən “Məktəbəqədər təhsil” ixtisasının bir qrup tələbə və müəllimləri Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr edilmiş tədbirin təşkilində fəal iştiraklarına görə tərifnamə və təşəkkürnamə almış, pedaqoji heyətin çoxsaylı üzvləri mətbu orqanlarda Ulu Öndərin irsinə həsr edilmiş elmi-tədqiqat xarakterli məqalələr dərc etdirmişlər.

Pedaqoji kollektiv olaraq fəaliyyətimizin müsbət nəticələri Elm və Təhsil Nazirliyinin müəllimlərin işə qəbulu üzrə keçirdiyi müsabiqədə də hiss olunur. 2023-cü ildə keçirilən həmin müsabiqənin test imtahan mərhələsində “Texnologiya müəllimliyi” ixtisasının bu ilki məzunlarının 40%-i iştirak etmiş, onlardan 3%-i 90, 32%-i isə 80 baldan yuxarı nəticə göstərmişlər. Həmçinin “Fiziki tərbiyə müəllimliyi” ixtisasının builki məzunlarının 44%-i və “Təsviri incəsənət müəllimliyi” ixtisasının məzunlarının isə 18-i həmin müsabiqənin test imtahan mərhələsində iştirak etmişlər.

Kiçik məqaləmizdə qələmə aldıqlarımız böyük ADPK ailəsinin 2022-2023-cü tədris ilində həyata keçirdiyi çoxşaxəli fəalliyyət istiqamətlərinin məhdud bir qismidir. Qazandığımız bu və ya digər uğurlar hər birimizi öz üzərimizdə işləməyə daha çox həvəsləndirir. Təsadüfi deyildir ki, “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda qeyd edildiyi kimi bilik və bacarıqlarını artıran müəllimlər təhsilalanların nailiyyətlərinə əlavə töhfələr verirlər. Demək, təhsilin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması və bu sahəyə göstərilən dövlət qayğısı fonunda təhsilin bütün pillələri və səviyyələrinə yeni nəfəs gəlib.

**İsrayıl İSGƏNDƏROV,**
*ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin direktoru,*

**Simuzər QAFAROVA,**
*ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin metodisti*

# Birgə əməkdaşlıq, beynəlxalq təcrübə



## AzTU tələbələri Almaniyada təcrübə keçiblər



Azərbaycan Texniki Universiteti (AzTU) ilə Almaniyanın Brandenburq Texniki Universiteti Cottbus-Senftenberg (BTU Cottbus-Senftenberg) arasında əməkdaşlıq uğurla davam etdirilir.

Əməkdaşlıq çərçivəsində Alman Akademik Mübadilə Xidmətinin (DAAD) "Bir qrup xarici tələbənin Almaniyada tədris təcrübəsi 2023" proqramı üzrə qazanılmış təqaüd əsasında AzTU-nun bir qrup tələbəsi Alman mühəndislik fakültəsinin dekanı dosent Ərəstun Məmmədovun rəhbərliyi ilə BTU-da, həmçinin bir sıra tədris və istehsalat müəssisələrində təcrübə keçib.

"Ekoloji təmiz məmulun layihələndirilməsi/Umweltfreundliches Produktdesign" mövzusuna həsr edilən təcrübə müddətində AzTU tələbələri 4 qrupa ayrılıb.

Əvvəlcə tələbələrə mövzuya uyğun fərdi tapşırıqlar verilib. Praktiki məşğələlər BTU-nun Metalkəsən dəzgahlar kafedrasının müasir standartlar səviyyəsində təchiz edilmiş tədris və elmi-tədqiqat laboratoriyalarında keçirilib. Hər bir qrup üzrə nəticələr müzakirə edildikdən sonra təcrübənin ümümi nəticəsi haqqında DAAD üçün geniş hesabat hazırlanıb.

Daha sonra tələbələrin "neseef" beynəlxalq şəbəkəsi üzrə AzTU və BTU-nun tərəfdaş universiteti olan Polşanın Zielona Gora Universitetinə səfəri zamanı bu ali məktəbin müasir avadanlıqlarla təchiz edilmiş tədris və elmi-tədqiqat laboratoriyalarına baxış keçirilib.

Təcrübə dərsləri çərçivəsində BTU-nun prezidenti professor Gesine Grande AzTU tələbələri ilə görüşüb, onların təəssüratları ilə maraqlanıb. Gesine Grandenin AzTU tələbələri ilə görüşü haqqında BTU-nun rəsmi feysbuk və instaqram səhifələrində də ətraflı məlumatlar verilib.

Təcrübənin sonunda tələbələrə sertifikat təqdim edilib.

Tələbələr Almaniyaya səfər çərçivəsində həftə sonlarında və təcrübədən kənar vaxtlarda bir sıra mədəni-kütləvi tədbirlərdə də iştirak ediblər. Belə ki, tələbələr Berlin şəhərində Reyxstaq və Brandenburg Qapısı, Drezden şəhərində Drezden Qalereyası (Dresdner Zwinger) və Semper Operası, Potsdam şəhərində tarixi Sanssouci Sarayı və s. kimi yerlərlə yaxından tanış olub, onlara Almaniyanın tarixi və mədəniyyəti haqqında ətraflı məlumat verilib.

### AzTU ilə BTU arasında ikili diplom proqramının icrasına başlanılacaq

Səfər çərçivəsində DAAD-nin "Rəqəmsal məmulların layihələndirilməsi və istehsalı/Digitale Produktentwicklung und Produktion" layihəsi çərçivəsində 2023/2024-cü tədris ilindən başlayaraq "Maşın mühəndisliyi" ixtisası üzrə ikili diplom proqramı (tədris alman dilində) əsasında magistr hazırlığının tədris planı ilə bağlı yekun müzakirələr aparılıb.

Müzakirələrdə BTU tərəfdən layihənin rəhbəri, Maşınqayırma, elektrik və enerji sistemləri fakültəsinin tədris işləri üzrə dekan müavini, Metalkəsən dəzgahlar kafedrasının müdiri professor Sylvio Simon və AzTU-nun Alman mühəndislik fakültəsinin dekanı Ərəstun Məmmədov iştirak edib.

Magistratura səviyyəsində "Materialşünaslıq mühəndisliyi" ixtisası üzrə ikili diplom proqramının BTU tərəfdən koordinatoru, Birləşmə və qaynaq kafedrasının müdir müavini (tədris və tədqiqat üzrə baş mühəndis) Ralf Ossenbrink ilə də görüş keçirilib.

Bundan başqa, 4-5 dekabr 2023-cü il tarixlərində AzTU, BTU və Türkiyənin Qazi Universitetinin təşkilatçılığı ilə AzTU-da keçiriləcək "Maşınqayırma və enerji: yeni konsepsiyalar və texnologiyalar" mövzusunda II beynəlxalq elmi-praktik konfransına hazırlıq məsələləri də müvafiq qurumlarla ətraflı müzakirə edilib.

# Paytaxt məktəbliləri Sloveniyada



Bakı şəhəri 171 nömrəli tam orta məktəbin müəllim və şagirdlərindən ibarət nümayəndə heyətinin Sloveniyaya səfəri başa çatıb. Sloveniyanın Maribor şəhərində keçirilən XVII Avropa Gənclər Olimpiya Festivalı günlərində "Olimpiya Mədəniyyəti və Təhsili Proqramı" (OCEP) çərçivəsində təşkil olunan səfərdə məktəb nümayəndələri ilə yanaşı Elm və Təhsil Nazirliyinin sektor müdiri Hilal Salmanov, Nazirliyin İdman sektorunun əməkdaşı Aygün İbrahimova, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin Məktəbdənkənar fəaliyyətlərin təşkili sektorunun müdiri Günay Qurbanova, OCEP layihəsinin rəhbəri Ceyhun Rəhmanov, layihənin koordinatoru Namiq Cəfərov, Milli Olimpiya Komitəsinin (MOK) Xarici əlaqələr idarəsinin məsləhətçisi Ruslan Məmmədov da iştirak ediblər.

MOK-un baş katibi Azər Əliyev Mariborda keçirilən XVII Avropa Gənclər Olimpiya Festivalı zamanı 171 nömrəli tam orta məktəbin şagirdləri ilə görüşüb. Azər Əliyev OCEP-in fəaliyyəti barədə geniş məlumat verib və məktəblilərə müvafiq tövsiyələrini çatdırıb.

XVII Avropa Gənclər Olimpiya Festivalı zamanı OCEP çərçivəsində Azərbaycan guşəsinin açılışı olub. Guşədə ölkəmizin mədəniyyətini, tarixini, idmanını, mətbəxini, həmçinin Azərbaycan-Sloveniya dostluğunu və digər sahələri əhatə edən təqdimat və viktorinalar nümayiş olunub. Eyni zamanda Azərbaycan məktəbinin şagirdləri milli rəqslər ilə çıxış ediblər. Bundan başqa, qonaqlara Azərbaycandan gətirilmiş hədiyyələr təqdim olunub. Çoxsaylı qonaqlar, idmançılar və rəsmi nümayəndələr tərəfindən pavilyona böyük maraq göstərilib.

Azərbaycan nümayəndə heyəti və məktəblilər Sloveniyaya səfər çərçivəsində Maribor şəhərində Azərbaycanın igid oğlu Mehdi Hüseynzadənin şərəfinə ucaldılmış abidəni ziyarət ediblər.

171 nömrəli tam orta məktəbin şagirdləri Sloveniyanın Maribor şəhərində keçirilən XVII Avropa Gənclər Olimpiya Festivalında Azərbaycan komandasını dəstəkləyiblər.

Həmçinin səfər zamanı Azərbaycan nümayəndə heyəti 3 məktəbəqədər təhsil müəssisəsində olub. Görüş zamanı uşaqlar rəqs nümunələrini təqdim edib və müxtəlif oyunlar oynayıblar.

Nümayəndə heyəti Sloveniyanın Lyubyana şəhərinə və Avstriyanın paytaxtı Vyana şəhərinə də səfər edib.

Səfər çərçivəsində Azərbaycanın Avstriyadakı səfirliyində 171 nömrəli tam orta məktəbin nümayəndə heyəti ilə səfirliyin əməkdaşları arasında görüş keçirilib.




"AZƏRBAYCAN MÜƏLLİMİ"

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Yasamal rayonu,
Mətbuat prospekti 23 L, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 5661 **Sifariş** 1989

**Məsul növbətçi:** S.Kərimova



# Etibarsız sayılır

**Tərtər rayon** Hacıqərvənd kənd tam orta məktəbi 1999-cu ildə bitirmiş Mehdiyeva İlhamə Əsgər qızına verilmiş E-386094 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tərtər rayon** Seydimli kənd tam orta məktəbi 2022-ci ildə bitirmiş Əhmədzadə Məhəmməd Ceyhun oğluna verilmiş E-504577 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şuşa rayon** 19 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Əliyeva Gülbəniz Rövşən qızına verilmiş A-220432 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**2 nömrəli Peşə Məktəbi** (indiki Dəmir Yolu və Metropoliten üzrə Bakı Dövlət Peşə təhsil mərkəzi) tərəfindən 1976-cı ildə Əliyev Aydın Həsənağa oğluna verilmiş 825197 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Dövlət Universiteti** tərəfindən 2008-ci ildə Məmmədov Həsən Allahverdi oğluna verilmiş B-125664 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Xəzər Universiteti** tərəfindən 2012-ci ildə Namazov Orxan İlham oğluna verilmiş B-213597 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 138 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Əsgərov Davud Rafiq oğluna verilmiş A-200884 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi** tərəfindən 2014-cü ildə İsgəndərov Tamerlan Oruc oğluna verilmiş A-022867 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası** tərəfindən 2014-cü ildə Hüseynov Hüseyn Şahin oğluna verilmiş A-038399 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2005-ci ildə Allahverdiyev Azər Sabir oğluna verilmiş B-040033 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 14 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Zülfiqarov Əhməd Elşən oğluna verilmiş A-344559 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Memarlıq və İnşaat Universiteti** tərəfindən 2004-cü ildə Cəfərov Emin Zəfər oğluna verilmiş A-123482 nömrəli fərqlənmə bakalavr diplomu və diploma əlavə, 2006-cı ildə verilmiş MNB-004016 nömrəli magistr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 286 nömrəli tam orta məktəbi 1995-ci ildə bitirmiş Bədəlov Dilqəm Rizvan oğluna verilmiş A-089198 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 286 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş Bədəlov Xürrəm Rizvan oğluna verilmiş A-131382 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 80 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Qurbətzadə Fuad Sabir oğluna verilmiş E-278931 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 113 nömrəli tam orta məktəbin IX sinfini 2011-ci ildə bitirmiş Məmmədova Güney Yasin qızına verilmiş A-038169 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göyçay şəhər** 1 nömrəli tam orta məktəbi 2021-ci ildə bitirmiş Əliyev Samir Ayaz oğluna verilmiş E-416181 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 3 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Bayramova Gülyanaq Allahverdi qızına verilmiş B-313878 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 100 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Bayramlı Ülkər Vaqif qızına verilmiş A-008649 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2017-ci ildə Tağıyev Fəxri Elçin oğluna verilmiş AT-003175 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 11 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş İsmayılov Kamran Fərid oğluna verilmiş E-531894 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 25 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Cəfərov Natiq Balami oğluna verilmiş B-530515 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 48 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Musayev Fərid Azər oğluna verilmiş A-021793 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 2 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Bayramov Ümidəli Xəyyam oğluna verilmiş E-132752 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki şəhər** 10 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Əsgərova Nəzrin Akif qızına verilmiş A-557957 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Biznes və Kooperasiya Kolleci** tərəfindən 2015-ci ildə Aşirova Nazilə Adil qızına verilmiş AA-070299 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı 1 nömrəli Tibb Kolleci** tərəfindən 2011-ci ildə İsgəndərova Aytən Qafar qızına verilmiş BB-II-118058 nömrəli subbakalavr fərqlənmədiplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bərdə şəhər** 2 nömrəli tam orta məktəbi 2002-ci ildə bitirmiş Şahverdiyeva Könül Ənvər qızına verilmiş A-638804 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göyçay şəhər** 1 nömrəli tam orta məkitəbi 2001-ci ildə bitirmiş Rzayev Şamil Qnyaz oğluna verilmiş B-427702 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 286 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Ramazanov Tamerlan Şirin oğluna verilmiş A-026971 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** 137 nömrəli kənd orta texniki peşə məktəbi tərəfindən 1983-cü ildə Həsənov Sofiq Allahverdi oğluna verilmiş 614770 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Müasir İnnovasiyalar Liseyini** 2021-ci ildə bitirmiş Budaqova Əsmayə Natiq qızına verilmiş E-412764 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

# "Məktəb rəhbəri idarəedici lider olmalıdır"

**Zorka Karanxha**

"Şagird və tələbələrdə lokal deyil, qlobal miqyasda bacarıqlarını gerçəkləşdirmək qabiliyyəti olmalıdır"

"Yeni çağırışlar" onlayn müzakirə proqramının budəfəki qonağı Cənubi Florida Universitetinin Təhsil liderliyi və siyasəti üzrə doktorantura proqramının koordinatoru Zorka Karanxha olub. Belə ki, Elm və Təhsil Nazirliyinin dəstəyi və "T-Network" təhsil işçilərinin təcrübə və kommunikasiya platformasının təşkilatçılığı ilə davam edən "Yeni çağırışlar" proqramının 31 iyul 2023-cü il tarixində yayımlanan bölümündə ümumi büdcəsi 5.8 milyon dollardan çox olan qrant layihələrində iştirak edən Zorka Karanxha ilə "Gizli kurikulum" barəsində danışılıb. "T-Network"ün rəhbəri, təhsilin idarə olunması üzrə mütəxəssis Cəfər Mənsiminin təqdimatında davam edən proqram Elm və Təhsil Təhsil Nazirliyinin "Facebook" səhifəsi üzərindən Mətin Axundlunun tərcüməsi ilə Azərbaycan dilində canlı yayımlanıb.




### Məktəbdə intizam qaydaları

Məktəbdə intizam mövzularını araşdıran professor Zorka Karanxha ABŞ-də şagird və tələbələr qarşısında müəyyən tələblər, normalar qoyulduğunu diqqətə çatdırıb. "Davranış və intizam matrisası" adlanan sənəddə qeyd olunan qaydalar pozulduqda, şagirdlərə qarşı cəza tədbiri görüldüyünü - müvəqqəti olaraq onların təhsilinin dayandırıldığını, xəbərdarlıq, töhmət verildiyini, qaydaları kobud şəkildə pozduqda məktəbdən xaric edildiklərini bildirib. Zorka Karanxha hesab edir ki, şagirdlərin təhsilə olan ehtiyaclarını nəzərə almaları, bu qaydaların onlar üçün nə dərəcədə vacib olduğunu başa düşmələri üçün vaxt ayrılmalı, şagirdlərlə maarifləndirici işlər aparılmalı, şagirdlər və məktəb arasında mütləq qaydada etibar və etimad münasibətləri inkişaf etdirilməlidir. Professor bildirib ki, müəllimə etibar edən şagirdlərin akademik nəticələri yaxşılaşır və onlar müəllimi razı salacaq şəkildə davranmağa çalışırlar: "Biz məktəb qaydalarını, normalarını, tələbləri tərtib edərkən şagirdləri bu prosesə cəlb etmirik. Qaydaların nədən ibarət olacağından, məktəbin siyasəti, normaları, tələbləri, cəzalandırmanın üsulları, fəsadlarına dair şagirdlərin səs hüququ yoxdur, onlar prosesdən kənardadırlar. Məktəbdə təhsil prosesi zamanı unutduğumuz məqam odur ki, sinfə gələn uşaqlar hələ də inkişafı yaşayan bəşər övladlarıdır, bizim kimi adi insanlardır. Biz daha çox onlardan oxu, yazı, təbiət elmləri və digər fənlər üzrə akdemik nəticələr tələb edirik və uşaq olduqlarını unuduruq".

### Əsas ideya

Professor təhsildə təbliğ etdiyi əsas ideya barədə danışarkən məktəbləri bir həvəsləndirici, ilhamlandırıcı, uşaqların xoşbəxt olacağı yer, qayğı, nəvaziş məkanı kimi gördüyünü bildirib. Qonağın sözlərinə görə, uşaqlar məktəbdə müxtəlif emosiyalarla, stresslə üzləşirlər. Uşaqların 6-8 saat məktəbdə vaxt keçirməsini nəzərə alaraq onlara ailə mühiti yaratmaq, valideyn qayğısı göstərmək lazımdır. Şagirdlər özlərinə qarşı nəvaziş və qayğı hiss etməlidirlər. Xanım Karanxha vurğulayıb ki, müəllim, direktor, inzibatçı və s. statusları kənara qoyub birinci insan olmaq, sonra isə vəzifə və öhdəlikləri icra etmək lazımdır. Uşaqlar məktəbdə ədalətliliyin hökm sürdüyünü görməlidirlər.

ABŞ-də, xüsusilə Florida ştatında orta və yuxarı siniflərdə bir məktəbdə eyni vaxtda təqribən 3000-dən çox şagirdin təhsil aldığını diqqətə çatdıran professor belə məktəblərdə təhsil təmənnasız, ödənişsiz olsa da, məktəblərin xərcləri mümkün qədər azaltmağa çalışıdıqlarını bildirib. Bu zaman böyük sayda şagird kütləsinin ehtiyaclarını qarşılamaq məqsədilə bir çox dərs vəsaitləri standartlaşdırılır, ümumiləşdirilir. Standartlaşmanın isə fərdi yanaşmaya əks olduğunu qeyd edən qonaq fərqli şəkildə tədris prosesi qurulmalı və fərdi ehtiyacların nəzərə alınmalı olduğunu söyləyib. Professor bildirib: "Standartlaşdırılmış təhsil zamanı siz hamıya eyni yanaşırsınız. Bu zaman istedadlı şagirdlərə imtiyaz verirsiniz, digərləri isə öyrənmə üsulu fərqli olduğu üçün kənarda qalır. Bundan əlavə biz bütün şagirdləri standart şəkildə imtahan, test edirik. Bilirsiniz ki, ABŞ-da çoxvariantlı cavablar əsasında vahid test sistemi, yəni standart tədris və standart imtahan tətbiq olunur. Deyəcəksiniz ki, nə etmək olar? Biz bu yanaşmanı yenidən düşünməli, tərtib etməliyik ki, şagirdlərin fərdi ehtiyacları da nəzərə alınsın".

Cəfər Mənsiminin "Təhsil prosesində hansı liderlik stilinə daha çox ehtiyac var?" sualını cavablandıran qonaq məktəb inzibatçılığında əsas prinsiplərdən birinin demokratik liderlik olduğunu vurğulayıb və şəxsən dəstəklədiyi liderlik üslubları arasında paylaşdırılmış, transformativ, sosial ədalət liderliklərini sadalayıb. Professor məktəbdə, təhsildə liderlik deyəndə doğru, dürüst, ədalətli və etik qərarların verilməsinin, insanların inamının qazanılmasının onun üçün başlıca prinsip olduğunu dilə gətirib: "Biz elə etməliyik ki, insanlar bizə etibar etsin, etimad göstərsinlər. Bizim dediyimiz əməlimizlə vəhdət təşkil etməlidir ki, insanlar bizim ardımızca getsinlər".

### "Gizli kurikulum"

Professor Karanxha "Gizli kurikulum" ətrafında apardığı tədqiqat mövzusuna toxunaraq formal kurikulum, hamıya bəlli olan dərsliklər, təhsil proqramları və rəsmi sənədlərdən fərqli olaraq bu və ya digər şəkildə ifadə və qeyd edilməyən, eyni zamanda dəyərlərdə, yanaşmalarda təbliğ və təşviq etdilən, sadəcə sezilə bilən qeyri-rəsmi kurikulum haqqıda danışıb. Bu səbəbdən ona "nəzərdən kənarda qalan kurikulum" deyildiyini diqqətə çatdırıb. Qonaq "Gizli kurikulum" dedikdə özünütənzimləmə, öz-özünü qiymətləndirmə məsələsinin də nəzərdə tutulduğunu diqqətə çatıdırb.

Gələcəyin məktəbini təsvir edən Zorka Karanxha şagird sayı 300-400-dən çox olmayan, həmyaşıdlarına, ətraf mühitə, heyvanlara, əşyalara, kitablara, özlərinə qarşı nəvaziş və qayğı, təəssübkeşlik öyrədilən, böyüklərə hörmət təbliğ edilən, şagirdlərə kim olduqlarını dərk etdirən, fərqli sosial təbəqədən gəldiyinə görə şagirdləri incidilməyən, uşaqların terapevtik ehtiyaclarını nəzərə alan bir təhsil müəssisəsi gördüyünü bildirib. O deyib: "Mən ideal məktəbin direktorunu lider xidmətçi kimi görürəm. Bir tərəfdən məktəb rəhbəri idarəedici lider olmalı, digər tərəfdən də şagirdlərə xidmət göstərməlidir. Direktor elə bir mühit yaratmalıdır ki, müəllimlər sevə-sevə işləsinlər, şagirdlər isə sevə-sevə təhsil alsınlar. Belə məktəbi ideal məktəb modeli kimi görürəm".

### Həyat dərsi

Professor həyatdan çıxardığı əsas dərslərin inadkarlıq, davamlılıq, məqsədyönlük olduğunu dilə gətirərək izləyiciləri böyük bir amal, məqsədlər qarşısında özlərini aciz hiss etməməyə, nəhəng məqsədi və amalı xırda hissələrə bölərək hər dəfə bir addım atmaqla məqsədə doğru irəliləməyə çağırıb. Bu yolda inadkarlıq, davamlılıq, məqsədyönlük və zəhmətin vacibliyini qeyd edib. "Uğura gedən yolda heç bir zaman digərlərini xərcləməyin. Sizin uğurunuz digərlərinin hesabına olmamalıdır. Qərar qəbul etdiyiniz, inadkarlıq göstərdiyiniz zaman digərlərini də nəzərə alın ki, sizin addımlarınız başqalarına ziyan gətirməsin", - xanım Karanxha söyləyib.

Professor Karanxha qlobal miqyasda uğur qazanmaq istəyənlərə müxtəlif dəyərlərə, adət-ənənələrə həssas davranmağı, kritik düşüncəyə sahib olmağı tövsiyə edib. Qonağın sözlərinə görə, müxtəlif mədəniyyətlər, fərqli xalqlar mövcuddur, onların biri-birilə əlaqəsi fərqlidir. Bu səbəbdən xüsusilə qlobal mühitdə, iqtisadiyyatda həmin məqamları nəzərə almaq, digər tərəfdən yeni öyrənmələrə, insanların fikirlərinə açıq olmaq, bütün insanları şəxsiyyət kimi qəbul etmək lazımdır.

### 8 guşəli yeni çağırışlar

Proqramın ənənəvi "Təhsildə yeni çağırışları 8 guşəli ulduza bənzətsək, daha təhsilli gələcək üçün onun guşələri hansı çağırışlardan ibarət olar?" sualının cavabında Zorka Karanxha 8 təhsil ehtiyacını sadalayıb: "1.Tələbələrin biri-birilə mehriban, lətafətli davranması. Biz çox qütbləşmiş, pərakəndə dünyada yaşayırıq və bunun fonunda xeyirxah insanlara çox böyük ehtiyac var. Həmin ehtiyacı şagird və tələbələrimizlə formalaşdırmalıyıq. 2.Problem həll etmə bacarığı - çalışmalıyıq ki, təhsildə daha çox problemləri çözmə bacarığına sahib olan tələbələr yetişdirək. 3.Relevant, aktual, gündəmdə olan öyrənmə - biz gündəm təşkil edən məsələləri ön plana çəkməli, təhsilə gətirməliyik. 4.Kritik təfəkkür, düşüncə məsələsi. 5.İnklüzivlik məsələsi - bura ideya, müxtəlif öyrənmə tərzləri, üslub, gender inklüzivliyi, müxtəlif irqlər, bacarıqlar, sosial mənşəyə sahib olan insanlar və digər məsələlər daxildir. 6.Getdikcə daha çox sayda ədalət prinsipi əsasında fəaliyyət göstərən təşkilatların çoxluq təşkil etməsi. Xüsusilə müasir dünyada baş verən proseslərin nəzərə alınması. 7.Kreativlik- dünyada yayılmış geniş problemləri nəzərə alaraq bizə daha çox dünyanın üzləşdiyi problemləri həll edə biləcək və kreativlik potensialı olan insanlar lazımdır. 8.Qlobal funksionallıq - şagird və tələbələrdə lokal deyil, qlobal miqyasda bacarıqlarını gerçəkləşdirmək qabiliyyəti olmalıdır. Burada multikulturalizm, çoxmədəniyyətli mühitdə fəaliyyət göstərmək bacarığı da mütləqdir".

Görüşün sonunda "T-Network"ün rəhbəri Cəfər Mənsimi dəyərli vaxtını ayırdığı və qiymətli fikirlərini bölüşdüyü üçün professor Zorka Karanxhaya təşəkkürünü bildirib.

**Lamiyə ƏLİMƏRDANOVA**






# Vaxtdır, peşəni seç!

## 2026-cı ilə qədər peşə təhsili alanların sayı 27 mini ötəcək

⇦ Əvvəli səh.1

Qəbul ərizəçinin attestatında göstərilən müvafiq fənlər üzrə qiymətlərinin orta balı əsasında həyata keçirilir. Hər müraciətçiyə maksimum 5 ixtisas üzrə seçim etmək imkanı yaradılır.

Proses qeydiyyatdan keçənlərin elektron ərizələrindəki məlumatların doğruluğunun yoxlanılması ilə davam edəcək. İştirakçının ixtisaslar üzrə seçimi sistem tərəfindən təsdiqlənəcək və nəticələr barədə məlumat həm "Şəxsi kabinetim" bölməsində yerləşdiriləcək, həm də SMS bildiriş göndəriləcək.

Nəhayət, müsabiqədən uğurla keçən namizədlər qəbul olduqları müəssisəyə sənədlərinin əslinin təqdim edilməsi üçün dəvət olunacaqlar.

### Dövlət sifarişli yerlərin sayı artıb

Son illər ali təhsilə keçid imkanı verən yüksək texniki peşə təhsilinə maraq xüsusilə böyükdür. Bu marağı daha da böyütmək, qəbul sayını artırmaq nəzərdə tutulur. Subbakalavr dərəcəsi alan tələbələrin sayı 1460-dır. 6 ildir 11 təhsil müəssisəsi, 19 ixtisas üzrə həyata keçirilən bu təhsil səviyyəsi üzrə təhsilalanların sayının 2026-cı ilə qədər 9200 nəfər artması planlaşdırılır.

Sadəcə, yüksək peşə təhsili üzrə deyil, ümumiyyətlə, peşə təhsili alanların sayı artacaq. 2018-ci ildən artan rəqəmlər bunu deməyə əsas verir. Belə ki, həmin il 13960 nəfər peşə təhsili müəssisələrinə qəbul olunmuşdusa, 2022-ci ildə bu rəqəm artıq 19000-i ötüb. 2026-cı ilə qədər qəbul olunan tələbə sayının 27 335-ə çatacağı hədəflənib.

Bu hədəf ildən-ilə artan dövlət sifarişli yerlərin sayında da özünü göstərir. Elə götürək son 3 ilin rəqəmlərini. Qəbul planında 2021/2022-ci illərdə dövlət sifarişli yerlər 14160, 2022/2023-cü illərdə 16040 olub. 2023/2024-cü illərdə bu rəqəm 18290-dır. Dövlət sifarişli yerlərin sayı 18290, ödənişli yerlərin sayı isə 7130-dur. Göründüyü kimi, peşə təhsili səviyyəsində dövlət sifarişli yerlərin sayı təqribən 30 faiz artıb.

### Yeni ixtisaslar ...

Təhsilalanların sayına təsir həm də əmək bazarının tələblərini nəzərə alan yeni ixtisaslarla mümkün olacaq. Yeni tədris ilindən yüksək texniki peşə sahəsi üzrə iki yeni ixtisas - kompüter şəbəkələri və şəbəkə inzibatçılığı, kənd təsərrüfatı və inşaat texnikasının istismarı, texniki peşə sahəsi üzrə isə üç yeni ixtisas - rabitə quraşdırıcısı - kabelçi, kombi və kondisioner ustası, eləcə də unüyütmə istehsalının aparatçısı tədris olunacaq.

### ...yeni və müasir peşə təhsili müəssisələrində

Yeni ixtisaslar yeni, yaxşı təchiz olunmuş müəssisələrdə müasir proqramlar əsasında tədris ediləcək. Bakı, Gəncə, Bərdə, Qəbələ, İsmayıllı, Cəlilabad, Füzuli və Lənkəran şəhərlərində yeni və müasir peşə təhsili müəssisələri qurulub. Lənkəran Peşə Liseyi, Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi üçün binalar tikilir. Mingəçevir Peşə Təhsil Mərkəzinin binasının tikintisi başlamaq üzrədir. Eləcə də Füzuli, Tovuz, Qax və Quba Peşə liseylərinin, Sənaye və Yüksək Texnologiyalar üzrə Sumqayıt Dövlət Peşə Təhsil Mərkəzinin binalarının layihələndirilməsi aparılır. Bu müəssisələr ağıllı istixanalar, ferma, təcrübə hotelləri, həmçinin PUA təmiri emalatxanaları kimi müasir infrastrukturla təmin edilib. İnklüzivliyin təminatı üçün pandus qoyulmaqla, hibrid təlimin təşkili üçün şərait yaradılır.

Qarabağda yeni peşə təhsili müəssisələrində həm ənənəvi, həm də yeni ixtisaslar tədris olunacaq. İxtisaslar müəyyən olunarkən işğaldan azad edilən ərazilərin iqtisadi tələbləri əsas götürüləcək. Məsələn, Füzulidə kənd təsərrüfatında suvarma istiqamətində, eləcə də hava limanlarında tələb olunan bir neçə sahə üzrə, həmçinin dronların təmiri ilə bağlı texniklərin hazırlanması üzrə ixtisasların tədrisi mümkün olacaq. Eyni zamanda informasiya texnologiyaları sahəsi üzrə də yeni proqramların yaradılması nəzərdə tutulur.

### ...yeni müəllimlərlə

Müasir peşə təhsili müəssisələrində tədrisi həyata keçirəcək müəlimlər isə imtahanla seçiləcək. Avqustun ikinci yarısında peşə təhsili müəssisələrinə həm müəllimlərin, həm də istehsalat ustalarının işə qəbulu məqsədilə imtahanlar keçiriləcək.

### Yeni maliyyələşmə sistemi ilə...

Bu tədris ilinin yeniliklərindən biri də peşə təhsili sahəsində tətbiq ediləcək adambaşı maliyyələşmə sisteminə keçiddir. Növbəti illərdə mərhələli şəkildə digər müəssisələr də bu mexanizmə keçid edəcək. 3 min tələbə maliyyələşmə əsasında peşə təhsili əldə edəcək.

Növbəti iki il ərzində peşə təhsilinin təsnifatı da yenilənəcək. 15 min şəxsin qısamüddətli ixtisasartırma proqramlarına cəlbi nəzərdə tutulur.

Bir sözlə, indi ilin peşə seçmək vaxtıdır. Avqustun 11-dək olan bu dövrü dəyərləndirin ki, peşə sahibi olmağın üstünlüklərindən yararlana biləsiniz.

**Ruhiyyə DAŞSALAHLI**